# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*H.Əliyev*

*2 iyun 2017-ci il №20(8736)* www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** *muallim@edu.gov.az*


## Bu sayımızda


**Dörd universitetin akkreditasiyası təsdiqlənib** ⇨səh.3

**Lisey və gimnaziyalara qəbul üçün 3359 sorğu yerləşdirilib** ⇨səh.3

**UNEC Avropa təhsil məkanına inteqrasiyanı genişləndirir** ⇨səh.4

**Müəllim, diaqnozunuz var?!..** ⇨səh.5


# Ali təhsilin yeni standartları hazırlanır



## Yeni təhsil proqramlarında təlim nəticələri də öz əksini tapacaq

Azərbaycanda ali təhsilin yeni standartları hazırlanır. Bu barədə "Azərbaycan müəllimi" qəzetinə Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsindən məlumat verilib.

Məlumat üçün qeyd edək ki, "Ali təhsil pilləsinin dövlət standartı və proqramı" ali təhsil sahəsində sınanmış mütərəqqi beynəlxalq meyarlar, milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla, müəyyən dövr üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusudur. Dövlət standartı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün ali təhsil müəssisələrinə şamil olunur. Nazirlər Kabinetinin 75 nömrəli qərarı ilə təsdiq edilən sonuncu "Ali təhsilin dövlət standartı və proqramı" 2010-cu ildə qəbul edilib. Qüvvədə olma müddəti 6 il olduğundan bu sahədə yeni sənədə ehtiyac var.

⇨Ardı səh.2

## Azərbaycan Dillər Universitetinə yeni rektor təyin edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 iyun 2017-ci il tarixli sərəncamı ilə Kamal Mehdi oğlu Abdullayev Azərbaycan Dillər Universitetinin rektoru təyin edilib.

# Sosial layihənin hüquqi maneəsi

## "Maarifçi" Tələbə Kredit Fondunun missiyası problemlərlə üzləşib

*"Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsil alıram. IV kurs tələbəsiyəm. Artıq 3 ildir təhsil haqqımı ödəyə bilmirəm. 7 min manat borcum var. "Maarifçi" Tələbə Kredit Fondunun fəaliyyətə başlaması ilə borcumun ödənməsini bir neçə illiyə təxirə salmaq imkanım oldu. Bu şans özüm, ailəm üçün də çox əhəmiyyətlidir. İndiyə qədər heç bir problem yox idi. Necə deyərlər, təzəcə rahat nəfəs almışdıq. Mən də, bu şansdan yararlanan qrup yoldaşım da çox sevinirdik. Məsələnin görünən tərəfi odur ki, bu şans mənə verilməsəydi, ikinci kursdan sonra təhsilimi, yəqin ki, davam etdirə bilməyəcəkdim. Ancaq şəxsən mənə verilən bu şansdan başqa nəticələr də çıxartdım. Düşünürdüm ki, əvvəla, öz hesabıma təhsil almaq imkanım oldu. Ailəmi ağır yükə salmadım. Bu onlar üçün həm maddi, həm də mənəvi borc olacaqdı. İkincisi isə dövlət mənə güvənib. Bilirsiniz ki, bu şansın tələbələrə verilməsi üçün sadəcə ailənin sosial durumunun aşağı olması kifayət deyil, tələbənin də şəxsiyyəti önəmlidir. Demək, məni buna layiq görüblər. Tələbə yoldaşımla həmişə bu barədə danışırıq və o da mənim kimi düşünür. Ancaq sevincimiz uzun sürmədi. İndi imtahanlara buraxılmırıq. Elə bir vəziyyətdəyik ki, nə edəcəyimizi bilmirik. Dövlətin bu xeyirxah addımına kölgə salanları kim olduğu bizim üçün də maraqlıdır".*

Əlixan Heydərli Bakı Dövlət Universitetinin (BDU) imtahanlara buraxılmayan üç tələbəsindən biridir. O, "Maarifçi" Tələbə Kredit Fondu ilə müqavilə bağlayaraq, Bakı Dövlət Universitetinə borclu olduğu təhsil haqqının ödənməsinin bir neçə il təxirə salınmasına nail olub. Ona bu şans sözügedən "Maarifçi" Tələbə Kredit Fondu ilə Bakı Dövlət Universiteti arasındakı razılaşma əsasında tanınıb. Belə ki, Bakı Dövlət Universitetinin də 10 təsisçisindən biri olduğu "Maarifçi" Tələbə Kredit Fondu tələbənin borcunu öz öhdəsinə götürüb. Razılaşmaya görə, BDU təsisçi olaraq "Maarifçi" Tələbə Kredit Fonduna qoymalı olduğu vəsaitin əvəzinə ödənişli əsaslarla təhsil alan, ancaq təhsil haqqını ödəyə bilməyən 5 aztəminatlı tələbənin təhsil haqqından imtina edib. Bu, 17 oktyabr 2016-cı ildə BDU-nun təhsilin təşkili və təlim texnologiyaları üzrə prorektoru İ.Əliyevanın imzaladığı sənəddə təsdiqlənib. Həmin tələbələr Fondla müqavilə bağlayıb və vəsaiti ödəməsi üçün onlara bir neçə il vaxt verilib. Belə ki, Fondda müəyyən edilən qaydaya görə, tələbə təhsilini bitirdikdən 1 il sonra təhsil haqqını hissə-hissə ödəyəcək və həmin məbləğ Fondun hesabına daxil olacaq.

Hesablama Palatasının Bakı Dövlət Universitetində başladığı yoxlama ilə sosial cəhətdən əhəmiyyətli olan bu ideyanın hüquqi cəhətdən zəifliyi ortaya çıxıb. Belə ki, yoxlama "Maarifçi" Tələbə Kredit Fondu ilə BDU arasındakı münasibətlərdə hüquqi boşluğu üzə çıxarıb. Bu vəziyyətin zərərçəkənləri isə tələbələrdir.

⇨Ardı səh.2

## "Məktəblinin dostu" Cocuq Mərcanlıda

Füzuli rayonunun Horadiz şəhərində 28 May - Respublika gününün 99-cu illiyinə həsr olunmuş "Yaşa Azərbaycan" adlı festival baş tutub.

Festival çərçivəsində iştirakçılar Cəbrayıl rayonunun işğaldan azad edilmiş yeganə yaşayış məntəqəsi olan Cocuq Mərcanlıya növbəti dəfə səfər ediblər.

Təhsil Nazirliyinin "Məktəblinin dostu" layihəsi, Füzuli Rayon İcra Hakimiyyəti, Cəbrayıl Rayon İcra Hakimiyyəti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, "Eko Park" Ekoloji Tədqiqatlar Mərkəzi, "ASAN Könüllüləri" təşkilatı, ASAN Radionun birgə təşkilatçılığı ilə baş tutan səfərdə iştirakçılar Cocuq Mərcanlıda həyata keçirilən yenidənqurma və tikinti işləri ilə yaxından tanış olublar.

İştirakçılar ilkin olaraq ön cəbhədə düşmənlə üz-üzə vətənin keşiyində dayanan əsgərlərlə görüşüb, onlara göstərdikləri şücaətə görə təşəkkür bildiriblər. Həmçinin "Əsgərə Məktub!" layihəsi vasitəsilə vətəndaşların, eləcə də "Məktəblinin dostu" layihəsi çərçivəsində məktəblilərin yazdıqları dəstək məktubları əsgərlərə təqdim olunub.

Bundan başqa, "Yaşıl ASAN" təşəbbüsü "Eko Park" Ekoloji Tədqiqatlar Mərkəzi ilə birgə "Qarabağa Doğru" ekoloji layihə çərçivəsində məktəblilərə təlim və ağacəkmə aksiyası keçirilib. Əsas mövzusu "Ekoloji maarifləndirmə" olan bu görüş cəmiyyətin ekoloji problemlərlə mübarizədə bütün təbəqələrinin iştirakını təmin etmək və onları bu işə cəlb etmək, real ekoloji layihələr vasitəsi ilə insanlar arasında maarifləndirmə işini effektiv şəkildə artırmaq və ekoloji mühitə dəyən zərəri minimuma endirmək məqsədi daşıyıb.

# Məktəbəhazırlıq qruplarında məşğələlər başa çatıb

Bakı şəhərindəki dövlət ümumi təhsil məktəblərində fəaliyyət göstərən məktəbəhazırlıq qruplarında məşğələlər mayın 31-də başa çatıb.

Qeyd edək ki, 2016-2017-ci tədris ilində BŞTİ-nin tabeliyindəki 261 məktəbdə fəaliyyət göstərən 839 məktəbəhazırlıq qrupunda 23130 uşaq məşğələyə cəlb olunub.

Məktəbəhazırlıq qruplarının əsas məqsədi uşaqların tədrisə hazırlıqlı başlaması, dərs prosesinə öncədən alışması və onlarda müəyyən bilik, bacarıq vərdişlərinin formalaşdırılmasıdır.

Məktəbəhazırlıq qruplarında məşğələlər hər il, bir qayda olaraq, oktyabrdan başlanır.

Həftədə 4 gün fəaliyyət göstərən məktəbəhazırlıq qruplarında "Ətraf aləmlə tanışlıq", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Bədii təfəkkürün inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Musiqi" və "Fiziki mədəniyyət" dərs məşğələləri tədris edilib. Gün ərzində 3 məşğələ tədris olunan qruplarda məşğələnin müddəti 30, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilib. Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlar üçün ev tapşırıqları nəzərdə tutulmur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında" 271 nömrəli və ""Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə dəyişikliklər edilməsi barədə" 272 nömrəli qərarlarına və həmin qərarların icrası barədə təhsil nazirinin 548 və 549 nömrəli əmrlərinə əsasən, 2016-2017-ci tədris ilində Bakının bir sıra məktəblərində ödənişsiz (dövlət büdcəsinin vəsaiti hesabına) məktəbəhazırlıq qrupları təşkil edilib.

Növbəti tədris ilində məktəbəhazırlıq qruplarına cəlb ediləcək uşaqların sayı beşyaşlı uşaqların 65 faizini təşkil edəcək.

**"Azərbaycan müəllimi" qəzeti və community.az portalı təqdim edir**






# Azərbaycanlı məktəblilər daha iki medal qazanıb

Hindistanın Dehli şəhərində 6-cı Amiti Beynəlxalq fənn olimpiadası keçirilib. Olimpiadada Azərbaycan, Türkiyə, Hindistan, Moldova, Rumıniya və digər ölkələr olmaqla ümumilikdə 11 ölkədən 276 şagird iştirak edib. Şagirdlər riyaziyyat, biologiya, fizika, kimya fənləri üzrə biliklərini sınayıblar.

Azərbaycanlı məktəblilər olimpiadada ölkəmizi uğurla təmsil ediblər. Akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdləri İbrahim Qasımlı gümüş, Ləman Məmmədli isə bürünc medal qazanıb.

## RƏSMİ XRONİKA



- İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Şahdəniz Mərhələ 2” üçün inşa olunan iki platformadan birinin - yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin Bibiheybətdəki Azfen tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki “Şahdəniz” müqavilə sahəsinə yolasalma mərasimində iştirak edib. Dövlət başçısı İlham Əliyev platforma ilə tanış olub, layihənin işçi heyəti ilə görüşüb və görüşdə çıxış edib.
- Dövlət başçısı İlham Əliyev iyunun 1-də Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə Kabil şəhərində törədilmiş güclü partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı verib.
- Prezident İlham Əliyev mayın 31-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi donanmasının “Qubadlı” və “Cəbrayıl” adlı yeni təchizat gəmilərinin istismara verilməsi mərasimində iştirak edib.
- Mayın 31-də ölkə başçısı İlham Əliyev Bakıda keçirilən yüksək səviyyəli rəsmi statistiklər üçün Dayanıqlı İnkişaf Məqsədləri üzrə məlumat və statistikaya dair subregional seminarın və Azərbaycanın sədrliyi ilə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 57-ci iclasında iştirak edən yüksək səviyyəli rəsmi qonaqları qəbul edib.
- Dövlət başçısı İlham Əliyev mayın 31-də ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini xanım Robin Danniqanı qəbul edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 31-də Bakı Sərgi Mərkəzində XXIV Beynəlxalq “Xəzər Neft və Qaz-2017” sərgi və konfransının, həmçinin VII Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak ediblər. Dövlət başçısı İlham Əliyev tədbirdə nitq söyləyib.
- Prezident İlham Əliyev mayın 31-də Azad iqtisadi zonalar yaradılması işinin sürətləndirilməsi haqqında sərəncam imzalayıb.
- Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyinin ərəb körfəzi məsələləri üzrə dövlət naziri Tamir bin Sübhan Əs-Sübhanı qəbul edib.
- Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 30-da paytaxtın Yasamal rayonunda keçmiş “Sovetski” adlanan ərazidə Mirzəağa Əliyev və Füzuli küçələrinin davamı olaraq yeni tikilən yolların açılışında iştirak edib, digər küçələrdə aparılan işlərin gedişi ilə tanış olublar.
- Mayın 30-da ölkə başçısı İlham Əliyev “Statoil” şirkətinin beynəlxalq inkişaf və istehsal üzrə icraçı vitse-prezidenti Lars Kristian Baxerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Dövlət başçısı İlham Əliyev mayın 27-də Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisiyə Əl-Minya vilayətində avtobusun avtomat silahlardan atəşə tutulması nəticəsində əksəriyyəti uşaqlardan ibarət olan sərnişinlərin həlak olması ilə əlaqədar başsağlığı verib.
- Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib. Həmin gün ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Buta” sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak ediblər. Dövlət başçısı İlham Əliyev rəsmi qəbulda nitq söyləyib.

## İntellektual oyun üzrə regional məktəb çempionatı

Bakı şəhəri 18 nömrəli tam orta məktəbdə Təhsil Nazirliyinin təşkilatçılığı və Azərbaycan İntellektual Klublar Assosiasiyasının dəstəyi ilə “İslam Həmrəyliyi İli”nə həsr olunmuş intellektual oyun üzrə 2017-ci ilin regional məktəb çempionatı keçirilib.

Ümumilikdə 61 ümumtəhsil məktəbinin komandasının qoşulduğu çempionatı giriş sözü ilə açan Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri Vasif Məmmədov iştirakçılara uğurlar arzulayıb.

Sonra çempionata start verilib. Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışın qalibi Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin komandası olub. Regionlar üzrə çempionatın qalibləri adına Sumqayıt şəhər Texniki və Təbiət Elmləri Liseyi, Gəncə şəhəri 25 nömrəli tam orta məktəbin, eləcə də Şəmkir, Lənkəran, Zərdab, Zaqatala, Şirvan, İmişli, Xaçmaz, Bərdə rayonlarının komandaları layiq görülüb. Çempionatın keçirilməsində əsas məqsəd gənclərin intellektual və yaradıcılıq bacarıqlarının inkişafına təkan vermək, eləcə də yüksək yaradıcılıq qabiliyyətinə, intellektual potensiala və müxtəlif sahələrdə dərin biliklərə malik gənclərin aşkara çıxarılması, daha çox məktəblinin intellektual fəaliyyətə cəlb olunması, onların asudə vaxtının səmərəli təşkilini təmin etməkdən ibarətdir.

Yarış respublika üzrə 12 zonanı - Bakı, Gəncə, Sumqayıt, Naxçıvan, Şəmkir, Mingəçevir, Şirvan, İmişli, Masallı, Quba, Zaqatala, Göyçay şəhərlərini əhatə edib.

Qaliblər Təhsil Nazirliyinin kubok və medalları, həmçinin Nar Mobile şirkətinin qiymətli hədiyyələri ilə təltif olunub.

## Respublika Günü məktəb tədbirlərində

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki təhsil müəssisələrində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 99 illiyinə, 28 May - Respublika Gününə həsr olunan konfranslar, mühazirələr və “dəyirmi masa”lar, ədəbi-bədii kompozisiyalar, şagirdlərin əl işlərindən ibarət sərgilər, vətənpərvərlik mövzusunda bədii qiraət gecələri keçirilib.

Tədbirlərdə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, mövcud olduğu qısa müddət ərzindəki fəaliyyəti barədə şagirdlərə geniş məlumat verilib. Ölkəmizin müstəqilliyi bərpa olunduqdan sonra qazanılmış uğurlardan, dövlət quruculuğu sahəsində ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs edilib.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün tariximizin ən şərəfli səhifələrindən biri olduğu bildirilib, ulu öndər Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın bu gün inamla irəlilədiyi, regionda və dünyada lider dövlətə çevrildiyi nəzərə çatdırılıb.

Şagirdlər müstəqilliyə, vətənpərvərliyə həsr edilmiş şeirlər, mahnılar söyləyib və tarix üzrə biliklərini nümayiş etdirən intellektual viktorinalar keçiriblər.

# Heydər Əliyev Fondu uşaqlar üçün növbəti şənlik təşkil edib

AZƏRTAC xəbər verir ki, 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə təsadüf edən şənlikdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Bakıdakı 1 saylı uşaq evinin Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən istirahət düşərgəsində keçirilən şənlik həm də bu uşaq evinin sakinlərinin yay düşərgəsinə köçməsi və mövsümün açılışı ilə əlamətdar oldu.

Uşaq evinin sakinləri bu məkanda yay mövsümünün ovqatını duydular, müxtəlif mahnılar, rəqslər ifa etdilər, məharətlərini göstərdilər. Leyla Əliyeva şən musiqi nömrələrinin sədaları altında uşaqlarla birgə rəqs etdi. Bir-birindən maraqlı musiqi nömrələrinin ifa olunduğu tədbirin yaddaqalan məqamlarından biri də hamının birgə yallı getməsi oldu.

Çay süfrəsi arxasında davam edən tədbirdə Leyla Əliyeva uşaqlarla söhbət etdi, onların bu şənliklə bağlı fikirləri ilə maraqlandı, xatirə şəkli çəkdirdi.



Bir saylı uşaq evinin 120 sakini var. Burada 3 yaşdan 18 yaşadək uşaqlar yaşayır, təhsil və tərbiyə alırlar. Bu düşərgə Heydər Əliyev Fondu tərəfindən 2006-cı ildə inşa olunub, 2013-cü ildə əsaslı təmir edilib, həyətyanı sahə abadlaşdırılıb. Burada yeni, müasir stadion inşa olunub, hovuz yenidən qurulub, uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün gözəl şərait yaradılıb. Düşərgənin dəniz yaxınlığında yerləşməsi isə uşaqların yay aylarında istirahətini çimərlikdə keçirməsinə də imkan verir.

Uşaq hüquqlarının təmin edilməsi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin uğurla reallaşdırılmasına Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva hərtərəfli dəstək verir. Ulu öndərin adını daşıyan Fond yarandığı ilk gündən valideyn himayəsindən məhrum olan, dövlət müəssisələrində tərbiyə edilən uşaqların taleyini diqqət mərkəzində saxlayır. Paytaxtımızın Nizami rayonundakı 1 nömrəli uşaq evinin Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki düşərgəsinin fəaliyyəti də Fondun uşaqlarla bağlı reallaşdırdığı layihələr silsiləsinə daxildir.

Şənliyin sonunda uşaqlara və yay düşərgəsinə hədiyyələr təqdim edildi.

# Ali təhsilin yeni standartları hazırlanır

## Yeni təhsil proqramlarında təlim nəticələri də öz əksini tapacaq

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Təhsil Nazirliyi Elm, ali və orta ixtisas təhsili şöbəsinin aparıcı məsləhətçisi Vüsalə Qurbanovanın sözlərinə görə, ali təhsil pilləsinin 3 səviyyəsi üzrə standartlar müəyyənləşdirilib. Hazırda ilkin variant üzərində iş davam edir. Yeni sənəd özündən əvvəlkindən fərqlənəcək: “Hazırda 2010-cu ildə təsdiq edilən həmin “Ali təhsil pilləsinin standartı və proqramı”ndan başqa, qüvvədə olan əlavə 3 sənəd var. “Bakalavriat təhsilinin məzmunu və təşkili qaydaları”, “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi qaydaları” və “Doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydaları” adlanan həmin sənədlərlə “Ali təhsil pilləsinin standartı və proqramı” sənədi, demək olar ki, biri-birini təkrarlayır. Odur ki, xarici ekspertlərin tövsiyəsi ilə həmin 4 sənədin birləşdirilməsi nəzərdə tutulub”.

Ali təhsil standartlarının ilkin variantı Finlandiya Təhsilin Qiymətləndirilməsi Mərkəzi və Estoniya Ali Təhsildə Keyfiyyətin təmin olunması üzrə Agentliklə Təhsil Nazirliyinin birgə həyata keçirdiyi Tvinninq layihəsi çərçivəsində finlandiyalı və estoniyalı ekspertlərə təqdim olunub və onlardan rəy alınıb. V.Qurbanovanın sözlərinə görə, sənədin hazırlanmasının son mərhələsində də ekspert rəyləri alınacaq.

Minimum tələbləri özündə əks etdirən həmin standartlar müəyyən olunduqdan sonra ixtisaslar üzrə təhsil proqramları hazırlanacaq. Hazırda ixtisasların adlarının Avropa ali təhsil müəssisələrindəki ixtisasların adlarına uyğunlaşdırılması həyata keçirilir. Bu proses, demək olar ki, yekunlaşma mərhələsindədir. Minimum tələblər müəyyən olunandan sonra ixtisasların strukturu müəyyənləşdiriləcək və ixtisaslar üzrə Təsnifata uyğun təhsil proqramları hazırlanacaq.

V.Qurbanova təhsil proqramlarında ediləcək ən böyük yenilikdən də danışıb: “Yeni təhsil proqramlarında “təlim nəticələri” də öz əksini tapacaq. Kompetensiyalara əsaslanan təhsil proqramları ölkəmizdə 2012-ci ildən tətbiq edilməyə başlanılıb. Lakin “təlim nəticəsi” anlayışı “kompetensiya” anlayışına nisbətən daha böyük məna kəsb edir. Belə ki, “təlim nəticəsi” anlayışı bilik, bacarıq və səriştəni özündə ehtiva etdiyi halda, “kompetensiya” ancaq səriştə mənasını bildirir. Odur ki, yeni təhsil proqramlarının Avropa standartlarına uyğun olaraq təlim nəticələrinə əsasən hazırlanması planlaşdırılır”.

# Sosial layihənin hüquqi maneəsi

## “Maarifçi” Tələbə Kredit Fondunun missiyası problemlərlə üzləşib

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

### Universitet öz üzərinə öhdəlik götürüb

“Maarifçi” Tələbə Kredit Fondunun icraçı direktoru Rüfət Mahmud “Azərbaycan müəllimi” qəzetinə açıqlamasında bildirib ki, Fondun təsisçisi olan 10 universitet öz üzərinə öhdəlik götürüb. Həmin öhdəliyə qeyri-nəğd formasında maddi vəsait də daxildir. Yəni, tələbələrdən alınmayan vəsait Fonda verilir. BDU Fonda ayırdığı həmin vəsaitdən tamamilə imtina edə bilər. Ancaq bunu etmir.

Hesablama Palatası isə nə ödənməsi mümkün olan, nə də birdəfəlik silinən həmin vəsaiti tələb edir. Universitetdə olmayan pul Fondda da yoxdur. Çünki vəsaiti tələbələr Fonda bir il sonra və daha uzun müddətə ödəyəcək. Yalnız bundan sonra Fond müvafiq qaydada universitet tələbələrinə real pullarla kredit ayıra biləcək. İndiki mərhələdə isə bu, mümkün deyil.

R.Mahmud hesab edir ki, əslində, qurulan mexanizmlə bir neçə il sonra uğurlu nəticələr əldə etmək mümkün olacaq. Potensialı, savadı, qabiliyyəti olan gənclər sadəcə təhsil haqqı üzündən təhsildən uzaqlaşmayacaq: “Ölkə qanunvericiliyinə uyğun mexanizm qurulub. Heç bir dövlət və ya özəl vəsait cəlb etmədən aztəminatlı ailələrin övladlarına təhsil almaq şansı yaradılıb. Heç kimə sirr deyil ki, dövlət başçısı İlham Əliyev aztəminatlı ailələrin həyat şəraitini yaxşılaşdırmaq üçün əlindən gələni edir. Bu məsələ Azərbaycanın sosial siyasətinin əsas prioritetlərindəndir. Təhsil Nazirliyi də məhz bu amili əsas götürərək aztəminatlı ailələrin övladlarına təhsil imkanları yaratmaqla ölkənin sosial siyasətinə öz töhfəsini verməyə çalışır”.

### 14 universitetdən 100-ə qədər tələbə

Maraqlıdır, bu humanist layihədən yararlanan, nəticədə BDU tələbələrinin qarşılaşdığı problemlə üzləşmək təhlükəsi ilə qarşı-qarşıya nə qədər tələbə var?

R.Mahmud “Maarifçi” Kredit Fonduna müraciət edən 14 universitetdən 100-dən çox tələbə olduğunu bildirib. Onun sözlərinə görə, sosial cəhətdən çox əhəmiyyətli olan bu layihə yüzlərlə imkansız tələbənin yeganə çıxış yoludur: “Əslində, müraciət edənlərin sayı kifayət qədər çoxdur. Hətta tərəfdaş olan 4 universitet bizimlə məhz tələbələrinin istəyi ilə müqavilə bağlayıb. Təbii ki, çox istəsək də, müraciət edənlərin hamısına bu şəraiti yarada bilmirik. Ona görə də, əvvəlcədən müəyyənləşdirilmiş şərtlər daxilində və ən tez müraciət edənlərə üstünlük verməklə gənclərimizin həyatını, təhsilalma şəraitini asanlaşdırmağa çalışırıq”.

### Kredit kimlərə verilir?

Kredit təhsilini davam etdirməsi üçün maliyyə yardımına həqiqi ehtiyacı olanlara verilə bilər. Ancaq bunun üçün də həmin tələbənin özünün və ya valideynlərinin daha əvvəl aldığı kreditlər üzrə defolt hadisəsinin baş verməməsi (borc öhdəlikləri üzrə ödənişlərin vaxtında yerinə yetirilməməsi və ya borcun digər şərtlərinin təmin olunmaması) əsas şərt olaraq irəli sürülür.

Fondun təqdim etdiyi kreditlər üzrə müraciət edən tələbələr mütləq Azərbaycan vətəndaşı olmalı, hazırda Fondun təsisçisi və ya tərəfdaşı olan ali təhsil müəssisələrinin birində təhsil almalıdır. Yuxarıda qeyd olunan ümumi tələblərdən savayı, hər bir elan sessiyası üzrə ayrıca xüsusi tələblər müəyyən olunub. Məsələn, kredit vermək üçün valideynlərinin illik gəlir həddi, tələbənin yaşı, təhsil dərəcəsi və növü, kursu, ixtisası, Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG), akademik borcun mövcudluğu həmin tələblər siyahısındadır və seçim meyarı rolunu oynayır. Odur ki, Fond tərəfindən təqdim olunan kredit növləri elan sessiyaları üzrə fərqlənə bilər. Bütün hallarda, tələbənin müraciət zamanı yuxarıda qeyd olunan meyarlara cavab verdiyini təsdiq edən müvafiq sənədi təqdim etməsi şərtdir.

Elan sessiyasında nəzərdə tutulduğu təqdirdə, ailə başçısını itirmiş şəxslərə, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud tələbələrə müvafiq kredit növü yüngülləşdirilmiş (güzəştli) şərtlərlə təqdim oluna bilər.

Fondun icraçı direktoru R.Mahmudun sözlərinə görə, heç bir ölkədə belə bir təcrübə yoxdur: “Real pul olmadan mexanizm qurulub. Fondun hesabına vəsait daxil olmağa başlayandan sonra təhsil haqları Fond hesabına ödəniləcək və onda yəqin ki, bu cür problemlər də yaranmayacaq”.

Məlumat üçün qeyd edək ki, “Maarifçi” Tələbə Kredit Fondu Təhsil Nazirliyinin təşəbbüsü ilə yaradılıb. Əsas məqsədi aztəminatlı ailələrdən olan tələbələrə kreditlərin verilməsi vasitəsi ilə onlara ali təhsil almaqda bərabər imkanlar yaratmaqdır. Ölkəmizdə fəaliyyət göstərən dövlət ali təhsil müəssisələri - Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Gəncə Dövlət Universiteti və Sumqayıt Dövlət Universiteti tərəfindən təsis edilib. Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 2015-ci ilin oktyabrında qeyri-hökumət təşkilatı kimi dövlət qeydiyyatına alınıb. Sonradan 4 universitet də - Lənkəran Dövlət Universiteti, Xəzər Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Dövlət Aqrar Universiteti tərəfdaş olaraq qatılıb.

### Bakı Dövlət Universiteti çarəni Fondda axtarır

Bakı Dövlət Universitetində yoxlamalar davam edir. Hazırda bütün ümidlərini Fond üçün ayrılan yerlərə görə vəsaitin nəğd şəkildə BDU-nun hesabına daxil olacağına bağlayan Universitet rəhbərliyi bu mövqeyindən kənara çəkilmək niyyətində deyil. Bu uğurda öz tələbələrinin təhsilalma hüquqları pozulsa belə. Rektorun maliyyə məsələləri üzrə müşaviri Məzahir Sultanov qəzetimizə açıqlamasında Fondu ittiham edib: “Sosial cəhətdən Fondun işi müsbət qarşılanmalıdır. Lakin XIV-XV əsr deyil ki, natura ilə kredit verilsin. BDU büdcə təşkilatıdır. Hesablama Palatası tamamilə haqlı olaraq 21 min manat vəsaitin yerinə qoyulmasını tələb edir”.

### Həyəcanlı gözləniş

Belə görünür ki, hamı gözləyir: qanunla tənzimlənmə mexanizmi olmadığından real olmayan vəsaiti Hesablama Palatası universitetdən, BDU Fonddan tələb edir. Fond isə nəğd vəsaiti olmadığından onu dərhal ödəmək imkanına malik deyil.

Tələbələr isə... Onlardan 3-ü imtahana girmək üçün icazəni, qalan onlarla kreditli gənc isə sözügedən qurumlar arasında münasibətlərin nə vaxt aydınlaşacağını gözləyir.

# Dörd universitetin akkreditasiyası təsdiqlənib

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 sentyabr 2010-cu il tarixli 167 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası qaydaları" və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 26 aprel 2011-ci il tarixli 656 nömrəli əmri ilə təsdiq edilmiş "Təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarının tələblərinə uyğunluğunu müəyyənləşdirən meyarlar" əsasında 2015-2016-cı tədris ilində Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Lənkəran Dövlət Universitetinin, Bakı Biznes Universitetinin akkreditasiyaları keçirilib. Akkreditasiyaların nəticələri ilə bağlı Akkreditasiya komissiyalarının yekun arayışları Təhsil Nazirliyinin Akkreditasiya Şurasında müzakirə edilərək müvafiq qərarlar qəbul edilib. BDU, ADNSU, LDU və BBU-nun akkreditasiyaları barədə Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 18 may 2017-ci il tarixli 01 nömrəli qərarını nəzərə alaraq təhsil naziri 26 may 2017-ci il tarixində 4 universitetin hər birinin akkreditasiyası barədə əmr imzalayıb. Həmin əmrlərlə adıkeçən universitetlərin akkreditasiyası təsdiq olunub, onlara müvafiq keyfiyyət sənədi-sertifikat verilib. Universitetlərin həyata keçirdikləri təhsil proqramları (ixtisaslar və ixtisaslaşmalar) 2016-2021-ci illər üçün akkreditə olunmuş hesab edilib, hər biri üçün akkreditasiya müddəti 5 il müəyyənləşdirilib.

# ADU-da yay imtahan sessiyasının müddəti uzadılıb

Mayın 31-də Azərbaycan Dillər Universitetinin Elmi Şurasının növbəti iclası keçirilib. İclasda 2016-2017-ci tədris ilində bakalavriat səviyyəsində yekun Dövlət Attestasiyasının, magistr dissertasiyalarının yerinə yetirilməsi vəziyyəti və müdafiəsinin təşkili, 2016-2017-ci tədris ilinin II yarısının yekunları və yay imtahan sessiyasına hazırlıq məsələləri, alman dili kafedrasının hesabatı və cari məsələlər müzakirə edilib.

Müzakirə nəticəsində Azərbaycan Dillər Universitetində kadr hazırlığı üzrə ixtisasların xüsusiyyəti və tələbələrin istəyi nəzərə alınaraq universitetdə bakalavriat səviyyəsində yekun attestasiyanın ixtisas fənni üzrə tərtib olunmuş suallar əsasında imtahan və ya buraxılış işinin müdafiəsi formasında keçirilməsi qərara alınıb. Bununla yanaşı, yekun attestasiyanın uğurla aparılması üçün yay imtahan sessiyasının müddətinin uzadılması məqsədəmüvafiq hesab edilib.

# Bölgə abituriyentləri üçün videokonfrans

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilatçılığı ilə ali təhsil müəssisələrinə qəbul imtahanları ərəfəsində abituriyentlərin psixoloji hazırlığını gücləndirmək məqsədilə videokonfrans keçirilib. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Elektron Hökumət Təlim-Tədris Mərkəzində keçirilmiş videokonfransda Bakı, Zaqatala, Qəbələ, Gəncə, Göyçay, Sumqayıt və Şirvan məktəbliləri, müəllim və valideynlər iştirak ediblər.

Bilik Fondunun sektor müdiri Xatirə Hüseynova iştirakçılara təhsilin önəmini xatırladaraq, 2017-2018-ci tədris ili üçün Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə imtahan verməyə hazırlaşan abituriyentlərin maarifləndirilməsinə ehtiyac duyulduğunu bildirib və abituriyentlərin imtahan öncəsi bir sıra məlumatlara yiyələnməsinin səmərəli nəticələr verəcəyini vurğulayıb.

Abituriyentlərin maarifləndirilməsi məqsədilə təşkil olunmuş videokonfransda Dövlət İmtahan Mərkəzinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nigar Hüseynova, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ümumi təhsil şöbəsinin baş məsləhətçisi Əhliyyət Adıgözəlov imtahan qaydaları, universitetlərə qəbul prosesində məktəb məzunlarının ali təhsil almağa hazırlığının qiymətləndirilməsindən bəhs ediblər.

Tanınmış psixoloqlar Tariyel Faziloğlu və Lalə Ağayeva "Abituriyentlərin qəbul imtahanlarına psixoloji hazırlığı" mövzusunda geniş məruzə ediblər. Bildirilib ki, uzun müddət dərs oxumaq eyni əzələ və orqanlara düşən gərginlik, intensiv əqli fəaliyyət, istirahət və yuxu rejiminin pozulması, ən əsası emosional yüklənmə əsəb sisteminin gərginləşməsinə səbəb olur. Psixoloqlar abituriyentlərə məsləhət görüblər ki, imtahanqabağı stresi dəf etmək üçün imtahan və onun nəticələri barədə neqativ fikirlərdən uzaq olsunlar, pozitiv düşünsünlər.

Sonra mütəxəssislər interaktiv formada keçirilən videokonfransda Zaqatala, Qəbələ, Gəncə, Göyçay, Sumqayıt və Şirvandan olan abituriyent və valideynlərin çoxsaylı suallarını cavablandırıblar.

# Təhsil naziri Yaponiyanın səfiri ilə görüşüb



Mayın 26-da təhsil naziri Mikayıl Cabbarov Yaponiyanın Azərbaycan Respublikasına yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori ilə görüşüb.

Görüş zamanı Azərbaycan və Yaponiya arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq, gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

# Lisey və gimnaziyalara qəbul üçün 3359 sorğu yerləşdirilib

Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalara, eləcə də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 160 nömrəli Klassik Gimnaziya və 287 nömrəli "Zəkalar" liseyinə I sinfə qəbul üzrə elektron ərizələrin qeydiyyatı mayın 31-də başa çatıb.

Qaydalara görə, martın 15-dən mayın 31-dək davam edən proses zamanı qeyd olunan ümumi təhsil müəssisələrinə 3359 elektron sorğu yerləşdirilib. Bu sorğulardan 258-i ərazi üzrə olduğu üçün həmin uşaqlar lisey və gimnaziyalara müsabiqədənkənar qəbul olunacaqlar. Müsabiqə üçün sorğuların sayı isə 3101-dir.

Qeyd edək ki, martın 15-dən bəri I sinfə qəbul üzrə 43533 uşaq elektron qeydiyyatdan keçib. Bu, paytaxt üzrə I sinfə şagird qəbulu proqnozunun 95 faizinə yaxın göstəricidir. I sinfə şagird qəbulu prosesinin 6 ay (15 mart-15 sentyabr) davam edəcəyini nəzərə alsaq, təkcə bu rəqəmin özü prosesin nə qədər səmərəli olduğunu deməyə əsas verir.

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli Fərmanının tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə tətbiq olunan elektron sistem vasitəsilə I sinfə şagird qəbulu BŞTİ tərəfindən ərizələrin onlayn qeydiyyatı vasitəsilə həyata keçirilir.

Təhsil nazirinin müvafiq əmrinə əsasən, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalara, eləcə də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinə I sinfə şagird qəbulu valideynin (qanuni nümayəndənin) elektron ərizəsinin mektebeqebul.edu.az saytında qeydiyyatı yolu ilə həyata keçirilir. 15 mart-15 sentyabr 2017-ci il tarixlərini əhatə edən elektron ərizənin qeydiyyatı prosesində valideynlər məktəbi, təlim dilini və müəllimi seçməlidirlər. Hər hansı səbəbdən özü elektron qeydiyyata keçə bilməyən şəxslər Bakı şəhərinin hər inzibati rayonunda I sinfə elektron sistem vasitəsilə ərizələrin qeydiyyatı məsələlərində vətəndaşlara kömək məqsədilə 50 məktəbdə yaradılmış Alternativ Qeydiyyat Mərkəzlərinə müraciət edə bilərlər.

Həmçinin, I sinfə şagird qəbulu prosesində qeydiyyat və sənəd qəbulu prosesində araşdırmaya ehtiyac olan məsələlərin həlli məqsədilə Bakı şəhəri üzrə 6 ümumi təhsil müəssisəsində Apelyasiya Komissiyaları fəaliyyət göstərir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən mektebeqebul.edu.az saytının istifadəçiləri üçün 2017-2018-ci tədris ilində elektron sistem vasitəsilə uşaqların I sinfə şagird qəbulu barədə videotəlimat hazırlanıb.

Qeyd edək ki, I sinfə şagird qəbulu üzrə onlayn qeydiyyatdan keçmiş valideyn ilk mərhələdə iyunun 15-dək övladının sənədlərini müvafiq məktəbə təqdim etməlidir. Məktəb tərəfindən sənədlər hər həftənin V-VI günləri (bayram günləri istisna olmaqla) saat 11:00-dan 16:00-dək qəbul edilir. Sənədlər qəbul edildikdən sonra valideynə (qanuni nümayəndəyə) bu barədə qəbz verilir.

# "Coca-Cola məktəbli kuboku" turnirinə yekun vurulub

Təhsil Nazirliyi, AFFA və Coca-Cola şirkətinin birgə layihəsi olan "Coca-Cola məktəbli kuboku" turnirinin final mərhələsinə yekun vurulub.

Final qarşılaşmasında Bakı şəhəri Suraxanı rayonu 141 nömrəli tam orta məktəbin komandası ilə Qaradağ rayonu 106 nömrəli tam orta məktəbin komandası qarşılaşıb. Rəqibini 7:3 hesabı ilə məğlub edən 141 nömrəli tam orta məktəbin komandası "Coca-Cola məktəbli kuboku" turnirinin 2016-2017-ci il mövsümünün qalibi olub. Turnirdə 3-cü yeri Gəncə şəhəri 24 nömrəli tam orta məktəbin komandası tutub.



Final qarşılaşmasından sonra mükafatlandırma mərasimi keçirilib. Mükafatları təhsil nazirinin müavini, AFFA İcraiyyə Komitəsinin üzvü Firudin Qurbanov, AFFA-nın baş katibi Elxan Məmmədov və "Azerbaijan Coca-Cola Bottlers" şirkətinin baş direktoru Erdinc Güzel təqdim ediblər.

Turnirin ən yaxşı oyunçusu Suraxanı rayonundakı 141 nömrəli tam orta məktəbin komandasının kapitanı Nicat Quliyev seçilib. Həmin məktəbin şagirdi Hüseyn Quliyev 11 qolla yarışın ən məhsuldar oyunçusu olub. Fair Play mükafatına isə Qaradağ rayonundakı 106 nömrəli tam orta məktəbin komandasının üzvü Ləman Həsənzadə layiq görülüb.

# Yəhya Kərimovun elmi-pedaqoji fəaliyyətinin 75 illiyi qeyd olunub

Şakir CƏFƏROV

İ.Əfəndiyev adına "Elitar" gimnaziyada Azərbaycan Respublikasının Təhsil İnstitutunun professoru, əməkdar müəllim, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli Yəhya Kərimovun anadan olmasının 90 və elmi-pedaqoji fəaliyyətinin 75 illiyi qeyd olunub. Tədbirdə Təhsil Nazirliyinin nümayəndəsi, ali məktəb müəllimləri, respublikanın tanınmış ziyalıları və digər qonaqlar iştirak ediblər.Tədbiri giriş sözü ilə Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi-Pedaqoji Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Faiq Şahbazlı açıb. Yubilyarın elmi-pedaqoji fəaliyyətindən söz açan F.Şahbazlı bildirib ki, professor Yəhya Kərimovun elmi-pedaqoji kadrların hazırlanması sahəsində böyük xidmətləri olub. Hazırda da bu istiqamətdə işini davam etdirir. 50-dən artıq fəlsəfə doktoru və elmlər doktoru yetişdirib.



Tədbirdə iştirak edən Təhsil Nazirliyinin şöbə müdiri və Təhsil İnstitutunun direktor vəzifəsini icra edən Emin Əmrullayev, professorlardan Hüseyn Əhmədov, Vidadi Xəlilov, ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru Qulu Novruzov və başqaları çıxış edib. Qeyd edilib ki, ibtidai siniflərin "Əlifba", "Ana dili", "Oxu", "Azərbaycan dili" dərsliklərini, həmin dərsliklərə aid metodik göstərişləri, iş dəftərini, "Hüsnxətt"i, tədris proqramlarını Yəhya müəllim hazırlayıb. Bu gün pedaqoji ictimaiyyət arasında Yəhya Kərimovun böyük hörmət və nüfuzu var. "Elitar" gimnaziyanın şagirdləri yubilyara aid şeirlər söyləyib və mahnı oxuyublar.

Sonda Yəhya Kərimov tədbirin təşkilində zəhməti olan hər kəsə təşəkkürünü bildirib.

# "Sağlam həyat tərzi" mövzusunda fləşmob keçirilib

"Ekoloji aylıqlar" layihəsi çərçivəsində "Sağlam həyat tərzi" mövzusunda fləşmob keçirilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan məktəblərdə, həmçinin "Sağlam həyat tərzi" mövzusu üzrə elmi konfrans, müsabiqə, yarış, "açıq dərs", sərgi və ekskursiyalar təşkil edilib, müxtəlif araşdırmalar aparılıb. Tanınmış idmançıların şagirdlərlə görüşü olub.

"Ekoloji aylıqlar" layihəsi çərçivəsində "Sağlam həyat tərzi" mövzusunda tədbirlərin keçirilməsində əsas məqsəd şagirdlərin diqqətini sağlam həyat tərzinə yönəltmək, onları bu barədə daha geniş məlumatlandırmaqdan ibarətdir.

Tədbirlərin yekununda may ayı üzrə "Sağlam həyat tərzi" mövzusunda "Ayın ən sağlam məktəbi" seçiləcək.

Qalib məktəb orijinallıq, mövzunun əhatəliliyi, şagirdlərin bacarıqlarının formalaşdırılmasına xidmət edən fəaliyyət zənginliyi, layihədə müxtəlif yaş qrupunu təmsil edən şagirdlərin iştirakı, mövzunun ekoloji problemləri əhatə etməsi, hesabatların təqdim edilməsində təsdiqləyici materialların mövcudluğu (foto və s.) kimi meyarlara əsasən müəyyən olunacaq.

# UNEC Avropa təhsil məkanına inteqrasiyanı genişləndirir

Mayın 29-da Litvanın paytaxtı Vilnüsdə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə Avropanın nüfuzlu ali təhsil müəssisələrindən olan Mikolos Romeris Universiteti arasında magistratura səviyyəsində ikili diplom razılaşması imzalanıb. Razılaşma UNEC-in magistrlərinə Mikolos Romeris Universitetinin diplomunu əldə etmək imkanı verir. Bu, UNEC-in ikili diplom haqqında razılaşma imzaladığı Avropa İttifaqına üzv 4-cü ölkənin universitetidir.

Cari ilin sentyabr ayından başlayacaq proqrama qəbul olan magistrlər ilk semestri UNEC-də başa vuraraq, ikinci semestrdə Mikolos Romeris Universitetində təhsil alacaqlar. Növbəti üçüncü və dördüncü semestr təhsillərini isə yenidən UNEC-də davam etdirəcəklər.

Qeyd olunan ikili diplom proqramı UNEC-in magistrlərinə bu ali məktəbin professorları ilə yanaşı, Mikolos Romeris Universitetinin professorları ilə elmi tədqiqat işlərini yerinə yetirmək imkanı da verir. Belə ki, hər iki universitetin professorlarının rəhbərliyi altında magistr dissertasiyalarını uğurla müdafiə edən magistrlərə həm UNEC-in, həm də Mikolos Romeris Universitetinin diplomları təqdim olunacaq.

Səfər zamanı UNEC-in rektoru, professor Ədalət Muradov Mikolos Romeris Universitetinin rektoru, professor Algirdas Monkevicius ilə ikitərəfli əlaqələrin bütün spektrləri haqqında müzakirələr aparıb. Eləcə də proqram üçün seçilən tələbələrə hər iki universitet tərəfindən ölkələrə səfər etmək üçün viza və miqrasiya məsələlərində, yaşayış ünvanlarının müəyyən olunması və bank əməliyyatlarında dəstək göstərilməsi razılaşdırılıb.

Rektorlar əlaqələrin son illər daha da vüsət alaraq yüksələn xətt üzrə inkişaf etməsindən, reallaşdırılan tələbə və müəllim mübadiləsindən məmnunluğunu ifadə ediblər.

Qeyd edək ki, bu sahədə kifayət qədər təcrübəsi olan UNEC son 3 ildə tələbələrə London Universiteti/-London İqtisadiyyat Məktəbi, Fransanın Montpellier Universiteti, eyni zamanda İsveçrənin UBİS Biznes və Beynəlxalq Tədqiqatlar Universitetinin diplomalarını almaq imkanı verir.

# Xalq yazıçısı Elçinin yaradıcılığına həsr olunan elmi sessiya keçirilib



Mayın 30-da Azərbaycan Dillər Universitetində (ADU) ingilis dilinin üslubiyyatı və linqvokulturologiya kafedralarının birgə təşkilatçılığı ilə xalq yazıçısı, dramaturq, ictimai xadim, professor Elçin Əfəndiyevin yaradıcılığına həsr olunan elmi sessiya keçirilib.

Tədbirdə ingilis dilinin üslubiyyatı kafedrasının müdiri, dosent Sevinc Zeynalova çıxış edərək görüşün məqsədinin tələbə və müəllimlərin lirik hekayələr ustası, mahir komediyalar, tragediyalar, fundamental monoqrafiyalar müəllifi, yazıçı, professor Elçinin yaradıcılığı haqqında biliklərinin daha da zənginləşdirilməsi olduğunu bildirib.

ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutan Elçinin bədii əsərlərinin təkcə Azərbaycanda deyil, həm də dünya ölkələrində sevilərək oxunduğunu söyləyib. Onun sözlərinə görə, çağdaş milli nəsrimizin və dramaturgiyamızın istedadlı nümayəndəsi, görkəmli ictimai xadim, dünya şöhrətli xalq yazıçısı Elçin yaradıcılığının ilk illərindən cəmiyyətdə, bütövlükdə dünyada baş verən hadisələri dərindən dərk edərək onu istedadının gücü və qələminin qüdrəti ilə ustalıqla, bədii boyalarla öz əsərlərində əks etdirib. Ə.Abdullayev ömrünü ədəbiyyata həsr edən, çoxşaxəli yaradıcılığında milli özünüdərklə ümumbəşəri dəyərlər arasında bir vəhdət, bir körpü yaradan istedadlı qələm sahibinin əsərlərinin dünya ədəbiyyatında xüsusi yer tutduğunu nəzərə çatdırıb.

Professor Əfqan Abdullayev gələcəkdə ali təhsil müəssisəsinin müəllim və tələbələri tərəfindən yazıçının əsərlərinin dünyanın müxtəlif dillərinə tərcümə ediləcəyinə ümidvar olduğunu bildirib.

Elmi sessiyada dosent Vəfa Əliyev "Bəşəri ideyalar yazıçısı kimi", professor Məryəm Əlizadə "Elçin və teatr", "Visions of Azerbaijan" jurnalının redaktoru İan Peart "Elçinin yaradıcılığı ingilis dilində" mövzularında məruzə ilə çıxış ediblər.

Sonda xalq yazıçısı Elçin çıxış edərək tədbirin yüksək səviyyədə təşkilində əməyi olan hər bir kəsə minnətdarlığını bildirib.

# Tələbələrin elmə gedən yolu TEC-dən başlayır

Mayın 26-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Tələbə Elmi Cəmiyyətinin (TEC) ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş 74-cü elmi konfransı keçirilib.

Tədbirdə ADPU-nun rektoru, professor Cəfər Cəfərov TEC-in 74-cü elmi konfransının keçirilməsini müsbət hal kimi qiymətləndirib. Qeyd edib ki, tələbələrin böyük elmə gedən yolu TEC-dən başlayır. Biz tələbələrin elmi fəaliyyətə təşviq edilməsi üçün lazımi tədbirləri həyata keçirməli, elmi-tədqiqat işləri aparmalarına diqqət və qayğı göstərməli, onların elmi-tədqiqat işlərinin müasir tələblərə uyğun olmasını təmin etməliyik. Rektor tələbələrə xalqımızın tarixini, mədəniyyətini, ədəbiyyatını, incəsənətini, adət-ənənələrini, milli-mənəvi dəyərlərini, mədəni irsini mükəmməl öyrənməyi, bilik və bacarıqlara dərindən yiyələnməyi tövsiyə edib və konfrans iştirakçılarına uğurlar arzulayıb.

Elmi işlər üzrə prorektor, professor Asəf Zamanov çıxışında universitetdə dövri elmi nəşrlərin artması, gənclərin apardıqları elmi-tədqiqat işləri, fənlər üzrə olimpiadaların keçirilməsi, bu olimpiadaların həm elmi, həm də yaradıcı istiqamətdə aparılması barədə məlumat verib və olimpiadaların bütün fakültələr üzrə keçirilməsinin vacibliyini qeyd edib. TEC-in fəaliyyətinin daha səmərəli qurulmasının universitetdə tələbələrin elmi fəaliyyətlərinə müsbət təsir edəcəyini bildirən professor A.Zamanov ADPU-nun rektoru, professor Cəfər Cəfərovun rəhbərliyi ilə həm kafedralarda tədris olunan fənlər üzrə vakant professor, dosent, baş müəllim və müəllim vəzifələrini tutmaq üçün keçirilən müsabiqənin, həm də tədris-yardımçı heyətin və Kitabxana-İnformasiya Mərkəzinin əməkdaşlarının attestasiyasının yüksək səviyyədə, şəffaf və obyektiv keçirildiyini vurğulayıb və konfransın işinə uğurlar arzulayıb.

TEC-in sədri, dosent Əli Zalov çıxış edərək TEC-in böyük və zəngin tarixə malik olduğunu bildirib. Qeyd edib ki, TEC-in məqsədi tələbələrin bilik və bacarıqlarını aşkar etmək, onları elmi-tədqiqat işinə yönəltmək, tələbələrdə faktları araşdırmaq, təhlil etmək, müqayisə aparmaq bacarıqlarını formalaşdırmaqdır. Bu baxımdan TEC-in 74-cü elmi konfransı mühüm əhəmiyyət kəsb edir.

Plenar iclasda tələbələr slayd vasitəsi ilə məruzələrini təqdim ediblər.

Sonra konfrans öz işini 7 bölmədə-riyaziyyat, fizika və texnologiya, kimya və biologiya, tarix və coğrafiya, filologiya, pedaqogika və psixologiya, musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq bölmələrində davam etdirib. Bütövlükdə bölmələrdə 181 məruzə dinlənilib. Konfransın sonunda bölmə sədrləri hesabat veriblər.

# Bakı Mühəndislik Universiteti Rumıniya universiteti ilə əməkdaşlıq edəcək



Mayın 24-də Bakıda keçirilən Azərbaycan-Rumıniya Universitetlərarası Forumunda iştirak edən nümayəndə heyəti Bakı Mühəndislik Universitetində olub. BMU-nun rektoru, professor Havar Məmmədov Rumıniya təhsil nazirinin müavini Gigel Paraskivin rəhbərlik etdiyi nümayəndə heyətinə universitet haqqında ətraflı məlumat verib. Qonaqlar universitetin fəaliyyəti, burada həyata keçirilən tədbirlər barədə geniş məlumatlandırılıb. Maddi-texniki baza və akademik heyətlə tanış olan rumuniyalı alimlər bu ali təhsil müəssisəsinin potensialını yüksək qiymətləndiriblər. Onlar həmçinin müasir avadanlıqlarla təchiz olunmuş mexanika və kimya laboratoriyalarında aparılan təcrübələrə də baxıblar.

Sonda Bakı Mühəndislik Universiteti ilə Rumıniyanın Universitatea Ştefan cel Mare Suceava arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Əməkdaşlıq müqaviləsinə əsasən ali təhsil müəssisələri arasında ikili proqramların, tələbə -müəllim mübadiləsinin və digər tədbirlərin keçirilməsi nəzərdə tutulur.

# ADNSU ilə SAP Universitet Alyansı arasında əməkdaşlıq sazişi imzalanıb



Mayın 31-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı proqram təminatı istehsalı üzrə dünya miqyaslı SAP şirkətinin Azərbaycan nümayəndəliyinin direktoru Rüfət Hacıəlibəyov və SAP Universitet Alyansının Rusiya və MDB üzrə meneceri Yuri Kupriyanov ilə görüşüb.

Texnoloji yeniliklərdən faydalanma yolları, eləcə də rəqabətqabiliyyətli məhsulların istehsalının müzakirə olunduğu görüşdə bu sahə üçün səriştəli mütəxəssislərin hazırlığı ətrafında fikir mübadiləsi aparılıb. SAP şirkətinin Azərbaycan nümayəndəliyi ilə əməkdaşlığa böyük önəm verdiyini qeyd edən rektor M.Babanlı universitetdə həyata keçirilən yeni layihələr və startap məktəbi haqqında qonaqlara məlumat verib.

Qarşılıqlı əməkdaşlığın sənayenin yüksək keyfiyyətli və bacarıqlı mütəxəssislərlə təmin edilməsi kimi önəmli məqsəd üçün əsl imkan olduğunu qeyd edən SAP şirkətinin Azərbaycan nümayəndəliyinin direktoru R.Hacıəlibəyov SAP Universitet Alyansı barədə məlumat verib.

"SAP ilə əməkdaşlıq, qlobal tendensiyalardan istifadə etməklə ölkəyə böyük yeniliklər gətirib. Bu layihə həm də biznes idarəçiliyinin inkişafında xüsusi rol oynayacaq. Məqsədimiz hər iki tərəf üçün qarşılıqlı şəkildə faydalı olacaq uzunmüddətli əməkdaşlıq qurmaq və ölkənin inkişafına töhfə verməkdir", - deyə R.Hacıəlibəyov bildirib.

Görüşdə ADNSU-nun SAP Universitet Alyansı ilə əməkdaşlığının Azərbaycanın neft və qaz sənayesindəki gənc mütəxəssislərə dünyanın aparıcı neft şirkətlərində işgüzar proseslərin idarə olunmasında müsbət təcrübəni əldə etməkdə yardım edəcəyi qeyd olunub. Əməkdaşlıq SAP mütəxəssisləri tərəfindən ADNSU tələbələri üçün prezentasiyaların təşkili və şirkət tərəfindən yaradılan platforma və texnologiyalara çıxış imkanlarını nəzərdə tutur.

Görüşdə ADNSU ilə SAP Universitet Alyansı arasında əməkdaşlığa dair memorandum imzalanıb.

20 ildən artıq müddətdir fəaliyyət göstərən SAP Universitet Alyansına dünyanın 90 ölkəsinin 2300 universiteti daxildir. Artıq 7 ölkədə (Azərbaycan, Özbəkistan, Gürcüstan, Qazaxıstan, Ukrayna, Belarus və Rusiya) 82 ali məktəb Universitet Alyansına üzvdür. Bu gün MDB ölkələrində 200-dən artıq müəllim və 250000-dən artıq tələbə açıq mühazirələr, konfranslar və müsabiqə şəklində təlim-tədris prosesində SAP proqramlarından istifadə edir.

# LDU-da "açıq qapı" günü və məzun yarmarkası

**Esmira İSMAYILOVA**

Lənkəran Dövlət Universitetində "Məzun-2017" proqramı çərşivəsində "açıq qapı" günü və məzun yarmarkası keçirilib. Lənkəran Şəhər İcra Hakimiyyəti ilə birgə təşkil olunan tədbirin əsas məqsədi tələbə-məzunlara aldıqları ixtisaslar üzrə əmək bazarında olan tələbat haqqında məlumat vermək, işəgötürənlərlə onların bilavasitə qarşılıqlı ünsiyyətini təşkil etmək və bununla da işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verən ixtisaslı kadrların seçiminin aparılmasına imkan yaratmaq olub.

"Açıq qapı" günündə rayon rəsmiləri, LDU-nun builki məzunları,valideynlər, rayon məşğulluq idarəsinin və işəgötürən sifarişçi təşkilatların təmsilçiləri iştirak edib. İştirakçıları LDU-nun rektor vəzifəsini icra edən, riyaziyyat elmləri doktoru, professor Natiq İbrahimov salamlayıb və onlara bu elm ocağı barədə ətraflı məlumat verib, tədrisin maddi-texniki bazasının yenilənməsi, keyfiyyətli mütəxəssislərin hazırlanması istiqamətində son bir ildə görülən işlərdən danışıb. Əmək yarmarkasının keçirilməsinin vacibliyini qeyd edən professor Natiq İbrahimov belə tədbirlərin bu il LDU-nu bitirən 500-ə qədər məzuna iş probleminin həllində dəstək olduğunu deyib. Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının şəhər təsərrüfatı üzrə müavini Möhübbət Babayev, sosial iqtisadi məsələlər üzrə müavini Xalid Rəhimov, Lənkəran Rayon Məşğulluq Mərkəzinin direktoru Rahib Quliyev, mebel emalı və satışı üzrə ticarət mərkəzinin direktoru Elnur Əliyev, Bakı Biznes tədris mərkəzinin Lənkəran nümayəndəliyinin rəhbəri Firdovsi Axundov, Gilan Holdinq-in insan resursları şöbəsinin rəhbəri Coşqun İmanquliyev və başqaları çıxışlarında tədbirin əhəmiyyətindən bəhs edib, təklif və rəylərini bildiriblər.

Əmək yarmarkasına təkcə Lənkəranda yox, umumiyyətlə, cənub bölgəsində fəaliyyət göstərən 27 dövlət və özəl müəssisə 140 boş (vakant ) iş yeri çıxarıb. Təklif olunan boş (vakant) yerlərə builki məzunlardan 270 nəfər iştirak ərizəsini təqdim edib.

Tədbir iştirakçıları belə bir tədbirin təşkilinə, yuxarı kurslarda təhsil alan, xüsusən ali təhsil ocaqlarını bitirərək əmək fəaliyyətinə başlamaq ərəfəsində olan məzunlarla işəgötürənlər arasında ilkin əlaqələrin qurulmasına, onlarda müasir əmək bazarı barədə dolğun məlumat yaratdıqlarına görə təşkilatçılara öz təşəkkürünü bildiriblər.

Qeyd edək ki, bu, LDU-da təşkil olunan ilk "açıq qapı" günü və əmək yarmarkasıdır.

# "Mədəniyyət: problemlər və perspektivlər"

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində 2017-ci il "İslam Həmrəyliyi İli"nə həsr olunan "Mədəniyyət: problemlər və perspektivlər" mövzusunda doktorant və gənc tədqiqatçıların XI beynəlxalq konfransı keçirilib.

Konfransda Azərbaycan, Türkiyə, Özbəkistan və Qazaxıstandan 80-ə yaxın magistr və doktorant iştirak edib. ADMİU-nun prorektorları, professorlar Məryəm Əlizadə və Gülşən Əliyeva iştirakçılara müvəffəqiyyətlər arzulayıblar.

Plener iclasda "İslam mədəniyyətində qadın", "İslam mədəniyyəti Qacar xalçasında", "Tolerantlıq və mənəvi dilemma", "Müasir Şərq kinosunda mövzu-problem əlaqələri", "İslam mədəniyyəti Çex tarixşünaslığında", "Azərbaycan həmrəylik nümunəsi" və digər mövzularda çıxışlar olub.

"Sülhün tərənnümü" adlı bədii hissədə universitet tələbələri Azərbaycan muğamlarından ibarət konsert proqramı təqdim ediblər.

Konfransda kulturologiya bölməsi üzrə "Türksoylu xalqlarda ailə və nikah sistemi", "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", "Müasir Azərbaycan arxivi", "Sirli, sehirli buta", sənətşünaslıq bölməsi üzrə isə "Mifologiya və müasir teatr", "Kitabi-Dədə Qorqud dastanında teatrallıq", "Aparıcı-televiziyanın əsas siması kimi", "Qara Qarayevin fortepiano yaradıcılığında polifonik forma və janrlar", "Müasir Azərbaycan kinosunda sosial mühitin bədii həlli" və s. mövzularda məruzələr dinlənilib.

Sonda universitetin rektoru, əməkdar incəsənət xadimi, professor Fərəh Əliyeva çıxış edərək gənc tədqiqatçılara uğurlar arzulayıb.

# Türkiyəli müəllimlər NDU-da dərs və treninqlər keçiblər

Ankaranın Çankırı Universitetinin 9 nəfərdən ibarət nümayəndə heyəti Erasmus layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetində olub. Universitetlə yaxından tanış olan qonaqlar ixtisaslaşmış bölmələrdə dərs və treninqlər keçiblər.

İnformasiya sistemləri, kimya, türk dili və ədəbiyyatı, turizm və beynəlxalq münasibətlər ixtisaslarında keçilən dərslərdə qardaş ölkənin tədris sahəsindəki təcrübəsini bölüşən müəllimlər tələbələri maraqlandıran sualları cavablandırıblar.

Treninqlər keçmək üçün dəvət olunan nümayəndələr isə informasiya-kommunikasiya, mühasibatlıq, tələbə-məzun və idman şöbələrində olublar.

İnformasiya-Kommunikasiya Texnologiyaları (İKT) bölməsində şəbəkə sistemi, İKT-nin iş strukturu, elektron imtahanın keçirilmə qaydaları ilə bağlı məlumatlar verilib. Universitetin internet resursları və televiziyasının iş prinsipi ilə də maraqlanan qonaqlar, onlayn videokonfransların keçirilmə qaydaları ilə yaxından tanış olublar. Onlar habelə mühasibatlıqda sənəd dövriyyəsi ilə maraqlanib. Tələbə-məzun şöbəsində universitetdə həyata keçirilən elektron tədris prosesi haqda məlumat alıblar.

İdman sahəsi üzrə treninq nümayəndəsinə isə universitetin idman kompleksinin iş prinsipi, idman qurğuları, pedaqoji fakültədə mövcud olan idman zalı, idman meydançaları haqda məlumat verilib.

Universitetlə tanışlıq, keçilən dərs və treninqlər türkiyəli qonaqlarda Naxçıvan Dövlət Universiteti haqda xoş təəssürat yaradıb.

# “Özümü rənglərsiz təsəvvür edə bilmirəm”

## *Mələk Şəfiyeva:* “Uşaqlar və müharibə” rəsmim Heydər Əliyev Fondunun təsis etdiyi kataloqa salındı”

**Sifai SƏFƏROVA**



Tarixdə müharibələr çox olub və bütün müharibələr həmişə hədsiz insan itkiləri ilə nəticələnib. Azərbaycan xalqının qoşulduğu müharibələr də bizim nəslin qan yaddaşında silinməz izlər salıb. Alman faşizmi ilə düz beş il davam edən Böyük Vətən müharibəsində itkin düşən doğmalarını axtaranlar hələ də tam ümidsizləşməyiblər. Bu, şübhəsiz, bizdən yaşlı nəsillərin yaşadıqları müharibə dəhşətləridir. Və biz bu dəhşətləri qəzetlərdən oxumaqla, televiziya ekranlarından görməklə, radio dalğalarından eşitməklə, bir də o odun-alovun içindən yarımcan qayıdan, qollarından, ayaqlarından məhrum olan veteranlarımızın dilindən eşitməklə yaşamışıq.

Çox təəssüflər olsun ki, 70 ildən sonra tarix yenidən təkrarlandı, Azərbaycan yeni müharibəyə cəlb olundu, yenə qan töküldü, Şəhidlər Xiyabanı yarandı. Bu müharibə doğma torpaqlarımızın bütövlüyü uğrunda bugünkü nəslin müharibəsidir. Onun acı dadını hələ müharibə fəlsəfəsinin mahiyyətini dərindən dərk etməyən, ancaq ürəyində hədsiz vətən sevgisi olan 6-cı sinif şagirdi Mələk Şəfiyevanın fırçaların qara dili ilə, qələmə aldığı rəsm əsərlərində təsvir etdiyi döyüş səhnələrində də açıq-aydın görmək olur. Sanki mənimlə həmsöhbət olan bu rəsmlərdə meşələrdə, dağlarda donan uşaqların harayını eşidirdi qulaqlarım. Bu əsərlər şəhid övladlarımızın donan yaralarının sızıltıları ilə dolu idi. Xocalı fəryadı ağ vərəqlərin üstündə bir yeniyetmə müəllifin kövrək, həssas qəlbinin sızıltılarının ifadəsinə çevrilmişdi. Bu rəsm əsərlərinin heç birinə həyəcansız baxmaq mümkün deyildi. Ürəyimi kövrəldən bu rəsmləri nəzərdən keçirərkən tanınmış yazıçı Aqil Abbasın ssenari müəllifi olduğu “Dolu” əsərindəki gərginlik yaradan anlar, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin gülləbaran altında lentə aldığı dəhşətli süjetlər məni özümdən alıb döyüş səhnələrinin iştirakçısına çevirirdi. Mələk Şəfiyevanın qələmə aldığı bu rəsmlər ən yüksək alqışa layiq olduğuna görə beynəlxalq miqyaslı müsabiqələrdə dəyərli münsiflər tərəfindən elə ən yüksək qiymətini alıb.

### “Mənim rəngli dünyam” adlı ilk sərgim keçirildi”

2005-ci ildə Bakı şəhərində anadan olmuşam, - deyə 13 yaşlı Mələk söhbətə başladı. Paytaxtdakı 249 nömrəli tam orta məktəbin VI sinfində oxuyuram. Dərs əlaçısıyam. Məktəbin ictimai işlərində fəal iştirak edirəm. Uşaqlıqdan rəsm həvəskarı olmuşam. Anam həmişə deyir ki, evimizdə gəlincik əvəzinə çoxlu rəngli karandaşlarım olub. Plastilindən fiqurlar düzəldirdim. Rəsmə olan marağımı görən anam məni Bakı şəhəri Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq mərkəzinə, rəsm dərnəyinə gətirib. Dərnəkdə bu sənətin sirlərini rəsm müəllimim Nərminə Abdullayevadan öyrənmişəm. Özümü rənglərsiz təsəvvür edə bilmirəm, 2011- ci ildə Çexiyada keçirilən “Liditse” rəsm sərgisində 66 ölkədən 25460 rəsm əsəri nümayiş olunmuşdu. Mənim rəsmlərim həmin sərgidə I yerə layiq görüldü. İngiltərə, Rusiya, Almaniya, Polşa, Misir, Belarus, Moldova, Ukrayna və sair ölkələrdə keçirilən beynəlxalq rəsm müsabiqələrində ölkəmizi həmişə layiqincə təmsil etmişəm. 15 dekabr 2011-ci ildə isə “Abşeron” rəsm qalereyasında Nizami rayon Uşaq və Gənclər Yaradıcılıq Mərkəzinin dəstəyi ilə “Mənim rəngli dünyam” adlı ilk fərdi sərgim keçirilib. Sərgidə 60-a yaxın əl işim nümayiş olunub. Heyvanlar aləmindən bəhs edən “Nağıl motivi”, “Vəhşi pişik”, “Məstan pişik, balaca pişik”, “Tovuz quşu”, “Pəhləvan ayı”, “Dovşan balaları”, “Əlvan balıqlar” və təbiət mövzusuna həsr olunan “Yay gəldi”, “Gecə mənzərəsi”, “Meyvələrlə”, “Qız və çiçək”, “Bacılar”, “Şən yolka”, “Payız”, “Günəşli hava”, “Səhra gəmisi” və sair sulu boya ilə çəkdiyim rəsmlər iştirakçıların çox xoşuna gəldi. Bütün dostlarım həmin sərgidə iştirak edirdilər. Hamı məni təbrik edib alqışlayırdı. Həmin gün mərkəzin “Azəri inciləri”nin vokal qrupu, “Çiçəyim uşaq teatr studiyası”nın üzvləri, “Dənizçilər” kolleksiyası, “Bal rəqsləri”, “Milli rəqs” qrupunun üzvləri bu əlamətdar gün münasibətilə öz rəngarəng proqramları ilə məni təbrik etdilər. Nəticədə Təhsil Nazirliyinin diplomu və mərkəzin fəxri fərmanı ilə təltif olundum. Sevincimin hədd-hüdudu yox idi.

### “Uşaqlar və müharibə mövzusu mənim ən yaralı yerimdir”

Mən Xocalı faciəsini rəsmlərimdə canlandırarkən özüm də dəfələrlə ağlamışam. Uşaqlar və müharibə mövzusu mənim ən yaralı yerimdir.

2012-ci ilin fevralında “Gülüstan” sarayında Xocalı soyqırımının 20-ci ildönümünə həsr olunmuş “Uşaqlar və müharibə” mövzusunda keçirilən respublika rəsm sərgisində mənim rəsmlərim də var idi. Moskva şəhərində sərgilənmiş, seçilmişlərin arasında “Uşaqlar və müharibə” rəsmim Heydər Əliyev Fondunun təsis etdiyi kataloqa salındı. Həmin ildə Azərbaycanın müstəqilliyinin bərpasının 20 illik yubileyi münasibətilə İctimai Televiziya kanalında təşkil olunan “Müstəqil Azərbaycan uşaqların gözü ilə” respublika rəsm müsabiqəsinə də qatıldım və diplom qazandım.

### “Məni səhnəyə dəvət etdilər”

Mərkəzin Heydər Əliyev Sarayında təşkil etdiyi “Bizim uşaq dünyamız” adlı tədbirdə isə mərkəzin ən kiçik üzvü kimi məni səhnəyə dəvət etdilər və foto- slaydım nümayiş olundu. Sonra isə bu sahədə qazandığım nailiyyətlərdən söz açdılar, beynəlxalq müsabiqələr qalibi olduğumu bir daha diqqətə çatdırdılar. 2013-cü ildə “Abşeron” rəsm qalereyasında Xocalı soyqırımının 21- ci ildönümünə həsr olunmuş Bakı şəhər orta ümumtəhsil məktəbləri arasında “Müharibə uşaqların gözü ilə” mövzusunda keçirilən rəsm sərgisində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin fərqlənmə diplomu ilə təltif olundum. Rəssamlar İttifaqında “Rəssam günü” münasibətilə keçirilən tədbirdə də eyni uğura imza atdım.

### “Gözəl yay” fərdi sərgim keçirilərkən çox həyəcanlı idim”

2013-cü ilin iyulunda “Abşeron” rəsm qalereyasında sayca ikinci olan “Gözəl yay” fərdi sərgim keçirildi. Çox həyəcanlı idim. Anamın əlindən bərk-bərk tutmuşdum. Atam isə başımı sığallayıb, -nə oldu sənə qızım, - deyirdi. Atamın xoş sözlərindən sonra elə bil həyəcanım keçdi.

9 noyabr 2013-cü ildə Dövlət Bayraq meydanında “Bayrağımız qürur mənbəyimizdir!” adlı rəsm müsabiqəsində iştirak edərək müsabiqənin sertifikatına layiq görüldüm.

Qeyd edim ki, 2014-cü ilin mayında Norveçin Oslo şəhərində keçirilmiş “Mən və atam” rəsm müsabiqəsində diplomla mükafatlandırılmışam. Həmin ildən “Da ART” Uşaq yaradıcılıq studiyasının Dilarə Atakişiyevanın rəhbərlik etdiyi rəsm studiyasının üzvüyəm. 2015- ci ildə “İslam Dünyası uşaqların gözü ilə” rəsm müsabiqəsində uğur qazanmışam. Qeyd edim ki, digər peşələrdən fərqli olaraq rəssamlıq dərya kimidir, dərinliklərə baş vurduqca axtardığın inciləri tapırsan...

2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Təhsil Nazirliyi və UNESCO- nun iştirakı ilə Beynəlxalq Sülh Gününə həsr olunmuş uşaq və gənclər arasında keçirilmiş I respublika rəsm müsabiqəsində sertifikata sahib oldum. Təhsil Nazirliyinin və Xətai Mərkəzi Kitabxanasının rəsm müsabiqəsinin fəal iştirakçısı kimi 2016-cı ildə AzTV kanalının “Səhər” verilişinə dəvət aldım.

### “Onun böyük rəssam olacağına böyük ümid bəsləyirik”

Yeniyetmə rəssamın təhsil aldığı Bakı şəhəri 249 nömrəli tam orta məktəbin direktoru Nizami Bayramovun öz yetirməsi haqqında söylədiyi xoş sözləri xatırlatmaq da yerinə düşərdi:

- Mələk dərs əlaçısıdır. Nizam-intizama əməl edən şagirddir. Müəllimlərin hamısı onu öz övladları kimi sevir. Məktəbdə keçirilən əlamətdar günlərdə onun rəsmləri nümayiş olunur. İstedadlı şagirdlərimiz çoxdur, ancaq bütün müsbət keyfiyyətləri ilə o, başqa şagird yoldaşlarından seçilir. Mələk məktəbimizin fəxri, təhsilimizin uğurlu bir nümunəsidir. Gələcəkdə isə hamımız onun böyük rəssam olacağına böyük ümid bəsləyirik.

*Yeniyetmə rəssam ilə söhbət qurtaran deyildi. O, hələ uğurlarımın çoxu barədə danışmıram,- söylədi. Amma söylənilənlər mənim üçün artıq kifayət edirdi. Çünki Mələyin əsl istedad sahibi olduğuna artıq əmin olmuşdum.*

# Müəllim, diaqnozunuz var?!..



**Jalə MÜTƏLLİMOVA**

**Bu həm də o deməkdir ki, bizim uşaqlara növbəti ildən etibarən məktəblərdə daha gənc, daha istedadlı, daha müasir baxışlı, dünyagörüşlü gənc kadrlar, müəllimlər dərs deyəcək. Daha işıqlı pedaqoji simalar görə biləcəyik yəni.**

Bütün yaxşı sistemləri ona görə qururlar ki, insanlar yaxşı yaşasın. Dövlət daha yaxşı inkişaf eləsin. Cəmiyyətin, insanların özgüvəni formalaşsın. Cahillərin sayı azalsın. İnsanlar hər şeyə sivil yolla nail ola bilmək imkanı əldə etsin. O yerlərdə ki, sistemlər işləmir, deməli, insan problemi var. Üstəlik, kadr çatışmazlığı mövcuddur. Yəni, qısacası, islahat məqamıdır.

Bir məsələ də var. İstənilən islahat üçün yaxşı sistemin qurulması ilə məsələ bitmiş sayılmaz. Çünki həmin sistemin davamlılığı birmənalı güclü kadr heyətinə bağlıdır. O heyət yoxdursa, ən ideal sistem belə məhvə məhkumdur. Çox acı həqiqətdir, amma həqiqətdir.

Bu gün ölkənin təhsil sistemində çox ciddi islahatlara start verilib. Azərbaycanda müəllimlərin diaqnostik qiymətləndirilməsi həmin islahatın başlanğıcıdır. Artıq bu başlanğıcın nəticələri ortada iki tərəf formalaşdırıb. İslahata tərəfdar olan və islahat nəticəsində yerini itirmək təhlükəsi ilə üz-üzə qalan tərəf.

Birinci tərəf haqlıdır, həm də ehtiyatlıdır. Çünki islahatlarında hara qədər gedə biləcəklərindən əmin deyillər. Daha doğrusu, ictimai rəyin onlara nə qədər və necə dəstək olacağını hələlik proqnozlaşdıra bilmirlər. Bu həm də o deməkdir ki, onları ictimai rəyə təqdim edəcək tərəfin mübahisəli məqamda harada olacağı, kimin yanında durub, nə deyəcəyi də bəlli deyil.

Qarşı tərəf, yəni islahata məruz qalanlar isə illərdir sistemdə oturmuş, köklü və mübarizə üçün çoxlu sayda neqativ arqumentlər tapmaq bacarığı, üstəlik, əlaqələri olan təhlükəli təcrübəlilərdir.

Diaqnostik qiymətləndirmə bir məqamı da üzə çıxarıb. Ötən il müəllimlərin işə qəbulu imtahanının nəticəsində yüksək bal toplayan 10 mindən çox gənc və savadlı kadrın yalnız 2500-ə qədərini yerləşdirmək mümkün olub. Kənarda qalan minlərlə gənc kadr haqlı olaraq düşünür ki, bu gün diaqnostik qiymətləndirmədən “2” qiymət alsa da, sistemdə oturub, dərs deyən, işləyən, maaş alan adam məhz onun yerini tutandır. Onu mövqeyinə, hətta aqressiyasına görə qınamaq olmaz. Çünki adam haqlıdır. Özünü aldanmış və haqqına girilmiş bilir. Üstəgəl, probleminin müsbət həll ediləcəyinə ümidi yoxdur. İndi məlum diaqnostik qiymətləndirmə həm də bu narazı və haqlı gənclər üçün də qaranlıqda görünən işıq ucudur.

Qaldı “2” alan “müəllimlərə”, onlar hər yerdədirlər. Mənim, sizin, bizim qohumlarımız, dostlarımız arasında. O üzdən kimliyindən asılı olmayaraq ailəmizdə, evimizdə, ölkəmizdə savadsız uşaqlar görmək istəmiriksə, onlara “yetər!” deməyi bacarmalıyıq. Onlar anlamalıdırlar ki, 0-10 arası, özü də öz fənnindən, bal toplayan adamı sistemdə, müəllim adı altında saxlamaq olmaz. Bu işdə nəinki mənim əmim oğlu, heç kimin əmisi oğlu, hətta öz oğlu olması belə keçərli deyil. Biz bu mesajı verib də cəmiyyət, ictimai rəy, vətəndaş olaraq arxasında dayanmasaq, gələcəkdə qarşımızda bisavadlar ordusunu yetişdirən çox böyük qüvvə görəcəyik. Həmçinin onların on minlərlə yetişdirməsi, öz övladlarımızla üz-üzə duracağıq. Bu “döyüşdən” sistem yox, onlar qalib çıxacaq, çox olduqları üçün.

Qaldı “diaqnostikamız bizə nə deyir?” sualına.

Diaqnostikamız bizə deyir ki, ölkəmizdə xeyli müəllim öz ixtisasından “2” qiymət alıb. Bu o deməkdir ki, əslində, sizlərdən hansınızınsa uşağının gündəliyində o “müəllim”lərin yazdığı iki heç iki də deyil. Eləcə heç nədir.

Diaqnostikamız deyir ki, Azərbaycanda yaxın günlərdə etiraz bildirən “müəllimlər”ə rast gəlsəniz, əvvəlcə onlardan “müəllim, diaqnozun qoyulubmu?” sualına cavab almaq lazımdır. Yarızarafat, yarıciddi, yenə də insanlıq naminə xətirlərinə dəyməmək şərti ilə yəni.

Diaqnostikamızdan ən xoş cavab bir də bu ki, ixtisası müəllim olub müəllimlərin işə qəbulu imtahanlarından müsbət nəticə ilə çıxan minlərlə insanın iş yeri qazanmaq şansı olacaq. Bu həm də o deməkdir ki, bizim uşaqlara növbəti ildən etibarən məktəblərdə daha gənc, daha istedadlı, daha müasir baxışlı, dünyagörüşlü gənc kadrlar, müəllimlər dərs deyəcək. Daha işıqlı pedaqoji simalar görə biləcəyik yəni.

Diaqnostik qiymətləndirmə həm də bir mesajdır. Bu gün islahatını apara bilməsək, nəticəsini gələcəkdə faciə kimi görəcəyimiz mesaj. Biz vətəndaş, cəmiyyət, KİV olaraq susub, məsələyə fərdi baxış bucağımızdan yanaşsaq, yalançı humanizm göstərsək, təhsilimiz, yəni strateji maraq dairəsində olan bir sistem təhlükə altına düşəcək.

Müəllimlərin diaqnostikası bir də onu deyir ki, ölkənin gələcəyini təmin etmək üçün qurmaq istədiyimiz təhsil sistemini dəstəkləməyin bircə yolu var, bütün çeşid şantajlara baxmayaraq, öz ixtisasından iki alan “müəllimlərə” mütləq “yox” deməyi bacarmalıyıq, vəssalam!

# Bilik yarışında şagirdlər biliklərini sınağa çəkiblər



Bakıdakı 108 nömrəli tam orta məktəbdə şagirdlərin biliklərə daha dərindən yiyələnmələri üçün müxtəlif hadisələr, tarixi günlərlə bağlı viktorinalar, intellektual oyunlar təşkil edilir. Məktəbdə, eyni zamanda, Təhsil Nazirliyinin müəyyən etdiyi fənn aylıqları da uğurla keçirilir. Belə tədbirlərdən biri də məktəb rəhbərliyinin təşəbbüsü ilə keçirilən məktəblərarası bilik yarışmasıdır. Belə ki, cari ilin mart ayında VI-VII siniflər arasında 255 nömrəli tam orta məktəbin şagirdləri ilə birlikdə tarix fənni üzrə bilik yarışması təşkil olunub. May ayında isə bu tədbirin davamı kimi Azərbaycan dili və ədəbiyyatı fənni üzrə VIII-IX siniflər arasında viktorina keçirilib. 187 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Böyükxanım Qasımovanın məktəb proqramı əsasında hazırladığı sualları 108 və 255 nömrəli tam orta məktəblərin şagirdləri cavablandırıblar.

Bilik yarışmasının nəticəsinə görə, VIII siniflər üzrə 108, IX siniflər üzrə isə 255 nömrəli tam orta məktəblərin şagirdləri qalib olublar.

Tədbirin sonunda məktəbin direktoru Narınc Mehtiyeva qaliblərə tərifnamələr təqdim edib. O, şagirdlərə elmin sirlərinə yiyələnmək, Azərbaycan xalqına layiqli övlad kimi yetişmələri üçün daha çox çalışmağı tövsiyə edib. Şagirdlərdə mübarizə ruhunu, qələbə əzmini daim yüksəltmək üçün müəllimlərin və məktəb rəhbərliyinin də üzərinə böyük məsuliyyət düşdüyü vurğulanıb.

**Samirə DADAŞOVA,**
*Bakıdakı 108 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

# “Fəsillərin hikməti və ahəngi - Yaz” sərgi-tamaşa müsabiqəsinin qalibləri seçilib

“Sağlam təhsil” uşaq teatrı layihəsi çərçivəsində “Fəsillərin hikməti və ahəngi - Yaz” adlı sərgi-tamaşa müsabiqəsi keçirilib.

Müsabiqənin məqsədi yaz fəslində şagirdlərin təbiətdə baş verən dəyişikliklərə yaradıcı yanaşmalarını stimullaşdırmaq, baharın əsrarəngiz gözəlliklərini hazırladıqları əl işlərində təsvir etməklə, estetik zövqlərini formalaşdırmaq, təfəkkürlərinin inkişafına kömək etmək, onlarda ətraf mühitə və canlılara mərhəmət, xeyirxahlıq kimi dəyərləri aşılamaqdan ibarətdir.

Müsabiqənin nəticəsinə əsasən, “Ən yaxşı tamaşa” nominasiyası üzrə Bakı şəhəri 18 nömrəli tam orta məktəbin “Yazın xəbərçisi” tamaşası I, 132-134 nömrəli Təhsil Kompleksinin “Yazın axtarışında” tamaşası II, 258 nömrəli tam orta məktəbin “Kiçik ayının nağılı” tamaşası III yerlərə layiq görülüb.

“Ən yaxşı əl işi” nominasiyası üzrə 214 nömrəli tam orta məktəbin şagirdi Zərifə Baxşalı I, 83 nömrəli tam orta məktəbin şagirdləri Nərmin İbrahimli və Nəzrin İbrahimli II, 62 nömrəli tam orta məktəbin şagirdi Səidə Qəmərlinskaya isə III yeri qazanıb.

Müsabiqə qaliblərinin mükafatlandırma mərasimində Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Ombudsman Aparatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin nümayəndələri, məktəb direktorları və valideynlər iştirak ediblər.

Tədbirdə “Sağlam təhsil” uşaq teatrı layihəsi haqqında geniş məlumat verilib və layihəyə dəstək olan bütün təşkilatlara minnətdarlıq edilib.

# “Qarşıma qoyduğum məqsədə nail oldum”

## Qaxda üç müəllim maksimum bal toplayıb

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

Qax rayonunda keçirilən müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsində rayon üzrə 3 nəfər müəllim 60 bal toplayaraq yüksək nəticə göstərib. Şəhər 1 nömrəli tam orta məktəbin biologiya müəllimi İlahə Məmmədova, şəhər 2 nömrəli məktəb-liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi Nazlı İsmayılova və Cəlayir kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Eldəniz Paşayev imtahanda bütün sualları düzgün cavablandıraraq bu uğura imza atıblar.



**Eldəniz Paşayev:**

“Qələbəyə gedən yol imtahana səylə hazırlıqdan başlayır. Ona görə də bütün bacarıqlarımdan istifadə edərək imtahana hazırlaşdım. Nəhayət, qarşıma qoyduğum məqsədə nail oldum. 60 bal toplayaraq rayonumuzun təhsil işçilərinin mənə olan etimadını doğrultdum”.



**İlahə Məmmədova:**

“Hədəfim 60 bal toplamaq idi. Buna əmin olsam da, imtahan günü çox həyəcanlı idim. Nəticəmi görəndə çox sevindim. Bu hissi sözlə ifadə etməkdə çətinlik çəkirəm”.



**Nazlı İsmayılova:**

“İmtahanda 60 bal toplayaraq öz məktəbimə, rayonuma başucalığı gətirdiyimə görə qürur duyuram. Belə bir nəticəyə gəldim ki, hər bir sahədə uğur qazanmaq üçün yorulmadan, səbrlə, inadla çalışmaq lazımdır”.




# Şagird aktyorlar tariximizin xanlıqlar dövrünü canlandırıblar

E.Məmmədov adına İsmayıllı şəhər 3 nömrəli məktəb-liseydə VIII “b” sinif şagirdlərinin İlyas Əfəndiyevin “Hökmdar və qızı” pyesi əsasında hazırladıqları tamaşa Azərbaycan Xalq Cümhuriyyətinin 99-cu ildönümünə həsr olunub. Tədbirdə rayon təhsil, mədəniyyət şöbələrinin əməkdaşları, müəllim, şagird və valideynlər iştirak ediblər.

Sinif rəhbəri və tarix müəllimi Famil Əhmədzadənin zəhməti sayəsində meydana çıxan bu tədbir, həm də Azərbaycan tarixinin xanlıqlar dövrünü öyrənən şagirdlər üçün peşəkarlıqla düşünülmüş ədəbiyyatımızla tariximizin, bu günümüzlə keçmişimizin inteqrasiyası nümunəsi olub.

Tamaşada VIII əsr Azərbaycan tarixinin ən maraqlı və ziddiyyətli mərhələsi olan xanlıqlar dövrü, Qarabağ xanlığının həyatı, tarixi gerçəkliklər əks olunub. Qarabağ xanı İbrahimxəlil xanın xanlığı qorumaq üçün apardığı siyasət, Rusiyanın və ermənilərin məkrli siyasəti şagirdlərin ifasında iştirakçılara çatdırılıb. Kiçik “aktyorlar” tariximizin bu ibrətamiz səhifəsini canlandırmağa, tamaşaçıların gözlərini yaşartmağa, onları həyəcanlandırmağa nail olublar.

Səhnənin ustalıqla dekorasiya edilməsi, şagird-aktyorların məharətlə seçilməsi, müvafiq dövrə, Qarabağ etnoqrafiyasına uyğun geyimi, çaşmadan rollarını ifa etməsi, müəllimin və şagirdlərin pərdəarxası çevik təşkilatçılığı dinləyiciləri heyran edib.

Azərbaycan tarixini öyrətmək üçün yalnız proqram materialları əsasında nəzəri biliklərin mənimsədilməsi ilə kifayətlənməyən müəllim şagirdlərin bədii istedadına, emosional yaddaşına müraciət etməklə onlarda Vətənə və onun tarixinə sevgi aşılamağı hədəfləyib. Şagirdlərdə səhnə qabiliyyətinin formalaşdırılması, onların nitqinin, estetik görüşlərinin inkişaf etdirilməsi sahəsində tədbirin böyük əhəmiyyəti qonaqlar tərəfindən də qeyd edilib.

Məktəbin direktoru, rayon təhsil şöbəsinin təmsilçiləri və digər qonaqlar tədbirin hazırlanması və keçirilməsində əməyi olanlara təşəkkür ediblər.

**Sevda QASIMOVA,**
*İsmayıllı şəhəri*

# “Əgər müəllim öz peşəsini sevirsə, deməli o, xoşbəxtdir”

## *Günay Məmiyeva:* “Müəllim həm də yaxşı idarəetmə bacarıqlarına yiyələnməlidir”

Növbəti müsahibimiz İmişli rayonunun Xoşçobanlı kənd tam orta məktəbinin coğrafiya müəllimi Günay Məmiyevadır. O,1994-cü ildə İmişli şəhərində anadan olub. Orta təhsilini İmişli şəhər 5 nömrəli tam orta məktəbdə alıb. 2015-ci ildə Bakı Dövlət Universitetini bitirib. Elə həmin il müəllimlərin işə qəbulu müsabiqəsində uğurla iştirak edərək 52 bal toplayıb və Xoşçobanlı kənd tam orta məktəbinə müəllim təyin olunub.



*- Günay xanım, niyə müəllimlik peşəsini seçdiniz?*

- Mən uşaq yaşlarından müəllimlik peşəsinə bağlanmışam. Müəllimlərimdə gördüyüm keyfiyyətlər mənə bu peşəni sevdirib. Onları tez-tez məhəbbətlə xatırlayıram. Müəllimlikdən geri dönəcəyimi də düşünmürəm.

*- Bildiyimizə görə, universitetdə oxuduğunuz illərdə sizin bəzi uğurlarınız olub. Bu barədə nə deyərdiniz?*

- Universitetdə təhsil aldığım illərdə “Böyük Qafqazın şimal-şərq yamacının turizm potensialı, təbiət və tarixi abidələrin yerləşdiyi ərazinin geoinformasiya xəritəsi”ni hazırlamışdım. Həmin işim sertifikata layiq görüldü. Bu mövzuda məqaləm Avropa Birliyinin təhsil saytlarından biri olan gisap.eu saytında dərc olundu. “Universitetdaxili 50+50 qrant layihəsi”nin mükafatçısı oldum. Universitetin rektoru Abel Məhərrəmovun imzası ilə “Valideynə təşəkkür fəxri fərmanı”nı aldım.

*- Şagirdlərdə coğrafiya elminə necə maraq yaradırsınız?*

- XXI əsr informasiya əsridir. Şagirdlərin dünyagörüşünün artması üçün indi böyük imkanlar var. İKT avadanlıqlarının köməyi ilə şagirdləri daha yaxşı öyrətməyə çalışıram. Aydındır ki, şagirdlərdə elmə marağın yaranmasında müəllimin rolu böyükdür. Bu maraq şagirddə yaranıbsa, əmin olun ki, o, hər cəhətdən fənni anlayacaq və ən əsası daha dərindən öyrənməyə çalışacaq.

*- Fikrinizcə, bu peşənin sahibi hansısa keyfiyyətlərə malik olmalıdır?*

- Müəllim məsuliyyətli olmaqla yanaşı, daima elmi axtarışda olmalı, elmi-pedaqoji səviyyəsini artırmalı, davranışı, nizam-intizamı ilə seçilməlidir. Müəllim eyni zamanda səbrli olmalı, həm də yaxşı idarəetmə bacarıqlarına yiyələnməlidir. Yalnız bu halda müəllim işlədiyi kollektivdə, cəmiyyətdə daha nüfuzlu ola bilər.

*- Gələcək üçün nə planlarınız var?*

- İkinci ildir müəllim işləyirəm. Fəaliyyətimdə bir istəyim var. Bu da özümün dizayn edə biləcəyim müasir tələblərə cavab verən coğrafiya kabinetinin olmasıdır. Bu fənnə aid materiallar toplayıram. Növbəti tədris ilində reallaşacağına əminəm.

*- Müəllim olmağın xoşbəxtliyini nədə görürsünüz?*

- Əgər müəllim öz peşəsini sevirsə, deməli o, xoşbəxtdir. Çünki yüzlərlə şagirdi öyrədiriksə, sabaha hazırlayırıqsa, bunun özü elə xoşbəxtlikdir. Mən bu hissi hər gün yaşayıram. Bir də mənə öz sabahı və gələcəyi üçün ümid dolu gözlərlə baxan şagirdlərim bu peşədə qazandığım əvəzsiz xoşbəxtliyimdir.

Peşəsindən məmnun olmayan müəllimin xoşbəxtliyinə inanmıram.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# “Ana yurdum Azərbaycan” adlı mahnı müsabiqəsi

Balakən rayonunda Heydər Əliyev Mərkəzində “Ana yurdum Azərbaycan” adlı mahnı müsabiqəsi keçirilib. 2 nominasiya - saz və pioninoda ifa və mahnı oxumaq üzrə keçirilən yarışda 37 məktəb üzrə 45 şagird iştirak edib. Şagirdlər vətənpərvərlik ruhunda musiqilər ifa etdikdən sonra münsiflər heyəti tərəfindən qiymətləndiriliblər.

Səs üzrə Balakən şəhər 3 nömrəli və Mahamalar kənd tam orta məktəbləri 1, Katex zavod kənd tam orta məktəbi 2, Kortala kənd tam orta və Qullar kənd 3 nömrəli ümumi orta məktəblərin şagirdləri isə 3-cü yerləri tutublar.

Sarıbulaq kənd tam orta məktəbinin şagirdi bu nominasiya üzrə həvəsləndirici yerə layiq görülüb.

Digər nominasiyalar üzrə Qazma kənd 2 nömrəli tam orta məktəbi 1, Balakən şəhər 1 və 2 nömrəli tam orta məktəbləri 2, Qullar kənd 1 nömrəli və Şambulbinə kənd tam orta məktəblərinin şagirdləri 3-cü yerləri qazanıblar.

Qaliblər diplom və müxtəlif hədiyyələrlə mükafatlandırılıblar.

**Vüsalə BƏDƏLOVA,**
*Balakən Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Məktəbin 80 illik yubileyi qeyd olunub

Abşeron rayonu Novxanı kənd 1 nömrəli tam orta məktəbin 80 illik yubileyi qeyd olunub. Tədbirdə rayon icra hakimiyyətinin, təhsil şöbəsinin əməkdaşları, məktəbin məzunları, pedaqoji kollektiv və şagirdlər iştirak ediblər.

Əvvəlcə şagirdlər məktəb həyətində əsgər marşı sədaları altında hərbi keçid ediblər. Sonra məktəbin məzunu, karate üzrə dünya çempionu olan Zöhrab Əliyev Azərbaycan bayrağını meydana gətirib.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bildirib ki, Novxanı kənd 1 nömrəli tam orta məktəbi Abşeron rayonunun nümunəvi təhsil müəssisələrindəndir. Bu məktəbin məzunları arasında tanınmış insanlar çoxluq təşkil edir. Neçə-neçə dövlət və incəsənət xadimləri bu məktəbin məzunları olub.

Məktəbin direktoru Taliyyə Mirzəyeva təhsil müəssisəsinin keçdiyi inkişaf yolundan danışıb.

Tədbirdə məzunlar məktəblə bağlı xatirələrini bölüşüblər. Yubiley tədbiri şagirdlərin hazırladıqları bədii hissə ilə davam edib.

**Aysel TAHİROVA,**
*Abşeron Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Məktəblilərarası atıcılıq yarışı

Göygöl Rayon Təhsil Şöbəsi və Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə “Hazır ol!” devizi altında məktəblilərarası atıcılıq yarışı keçirilib.

Yarışda 18 ümumtəhsil məktəbindən 72 şagird iştirak edib. Məqsəd məktəblilərin idmana olan marağını daha da artırmaq, onlarda vətənpərvərlik hisslərini inkişaf etdirmək və şagirdlər arasında sağlam rəqabət mühiti yaratmaqdan ibarət olub. Hər bir məktəb üzrə 2 qız və 2 oğlan olmaqla 4 şagird iştirak edib. Qalib komanda turlar üzrə qazanılmış ümumi xallar əsasında müəyyən edilib. Qalib şəhər 1 nömrəli tam orta məktəbin komandası olub.

Sonda qalib komanda fəxri fərman və qiymətli hədiyyələrlə təltif olunub.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevin xatirəsi anılıb

Sabirabad şəhər 4 nömrəli məktəbdə rayon təhsil şöbəsi və məktəb rəhbərliyinin təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant, şəhid Murad Mirzəyevin anım günü qeyd olunub. Tədbirdə təhsil şöbəsinin nümayəndələri, şəhidin atası Telman Mirzəyev, Murad Mirzəyevin döyüş yoldaşı, leytenant Səbuhi Mehdiyev, müəllim və şagirdlər iştirak ediblər.

Dövlət himni səsləndirilib. Sonra tədbir iştirakçıları vətənin azadlığı və müstəqilliyi uğrunda həyatlarını qurban vermiş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Məktəbin direktoru Mahir Zahidov bildirib ki, ölkəmizin ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Murad Mirzəyev aprel döyüşlərində xalqımızın qəhrəmanlıq tarixinə parlaq səhifələr yazan igid döyüşçülərimizdəndir.

Şəhidin atası Telman Mirzəyev oğlunun şəhid olmasından ötən bir il ərzində qəhrəmanın ailəsinin ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunduğunu bildirib.

Tədbirdə şagirdlər vətənpərvərliyə aid şeir söyləyib, mahnı oxuyub və ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

**Xalid NƏCİYEV,**
*Sabirabad Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# "Azərbaycan bayrağını Qarabağda asacağıq"



**Niyazi RƏHİMOV**

Bakının Bilgəh qəsəbəsində yerləşən 11 nömrəli İnteqrasiya təlimli internat məktəbində 28 May - Respublika Gününə həsr olunmuş "Cümhuriyyətimizin tarixi" adlı "açıq dərs"lərin yekun tədbiri keçirildi. Tədbirdə məktəbin müəllim-şagird kollektivi ilə yanaşı, Sabunçu rayon YAP Gənclər təşkilatının sədri Rəşad Abbasəliyev, polis bölməsinin əməkdaşları, KİV nümayəndələri və digər şəxslər iştirak edirdi. Öncə iştirakçılar məktəbdə ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq əziz xatirəsini yad ediblər.

Dövlət himni səsləndirildikdən sonra tədbiri giriş sözü ilə açan məktəbin direktoru Gülnarə Abdullayeva Respublika Günü münasibəti ilə iştirakçıları təbrik etdi. Cümhuriyyətin tarixindən də danışan G.Abdullayeva bu dövlətin Şərqdə yaranan ilk demokratik dövlət olduğunu vurğuladı. Respublikamızın ikinci dəfə müstəqillik qazandıqdan sonra çiçəklənmə dövründən bəhs edən direktor ulu öndər Heydər Əliyevin dövlətçiliyimiz tarixindəki misilsiz xidmətlərindən söhbət açdı.

Tədbirin əhəmiyyətindən danışan direktor qeyd etdi ki, tədris ilinin əvvəlindən başlayaraq məktəbdə tarix fənni üzrə V-XI siniflərdə mövzuya uyğun olaraq "açıq dərs"lər keçirilib və bu gün həmin dərslərin yekunudur. Keçirilən "açıq dərs"lərin şagirdlərin milli vətənpərvərlik ruhunda böyüməsində, tariximizin dərindən öyrənilməsində xüsusi önəm daşıdığı bildirildi. G.Abdullayeva "açıq dərs"lərin təşkilində tədris ocağının tarix müəllimi Azər Abdurahmanzadənin xüsusi rolu olduğunu diqqətə çatdırdı.

Tədbirdə çıxış edənlər cümhuriyyət tarixindən geniş söhbət açdılar. Əlamətdar günlərin təhsil ocağında keçirilməsini təqdirəlayiq hal hesab etdilər.

"Açıq dərs"lərin yekununda V-XI sinif şagirdləri cümhuriyyət dövründən müasir dövrümüzə qədərki tarixi xronologiyanı, mühüm hadisələri iştirakçılara çatdırdılar.

Tədbirdə şagirdlərin ifasında şeirlər səsləndi, mahnılar oxundu. Şagirdlər tərəfindən göstərilən hərbi səhnəcik iştirakçılara xoş ovqat bağışladı. "Çırpınırdı Qara dəniz" mahnısının sədaları altında şagirdlərin son sözü "Azərbaycan bayrağını Qarabağda asacağıq" sözləri oldu.

# "28 May - Respublika Günü müasir gəncliyin baxışlarında"



**Rəşad ZİYADOV**

May Azərbaycan xalqının XX əsr tarixində ən əlamətdar, ən fəxarətli, uğurlu hadisələrlə, gözəl bayramlarla zəngin bir aydır. Bu gözəl may günlərinin biri- respublikamızın hər yerində təntənəli şəkildə qeyd olunan, öyrənilən, yenidən yaşanan və ölməzlik qazanan 28 May - Respublika Günü - Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulduğu gündür. Cümhuriyyətin yaradılmasının ildönümünə həsr olunmuş tədbirlərdən biri də Şuşa Musiqi Kollecində baş tutub.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbiri giriş sözü ilə kollecin direktoru Rasim Mehdiyev açaraq bildirib ki, xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuş 1918-ci il mayın 28-i hər bir Azərbaycan vətəndaşının milli qürur hissi duyduğu, arzularının çiçək açdığı bir gündür. Bu gün müstəqil Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin siyasi varisi kimi dünya dövlətləri sırasında öz layiqli yerini tutur. Vurğulanıb ki, ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən həyata keçirilən müasir inkişaf strategiyası Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, dövlətimizin qüdrətinin artırılmasına dəyərli töhfələr verməkdədir.

Kollecin tələbələrinin "28 May - Respublika Günü müasir gəncliyin baxışlarında"mövzusunda çıxışları dinlənilib. Çıxışlarda vurğulanıb ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb. Qeyd olunub ki, bütün mənalı həyatını öz xalqına bəxş edən ulu öndərin qurucusu olduğu müstəqil Azərbaycan getdikcə daha da inkişaf edəcək, qurucusunun adını əbədi yaşadacaqdır.

Sonra 28 May - Respublika Gününə həsr olunmuş Şuşa Musiqi Kollecinin tələbələrinin əl işlərindən ibarət sərgi nümayiş olunub. Tədbir konsert proqramı ilə başa çatıb.

# Bir tarixi gün yaşandı

**Sifai SƏFƏROVA**

Bakıdakı Həzi Aslanov adına 175 nömrəli tam orta məktəbin beşinciləri Respublika Gününə həsr edilmiş tədbiri Nəriman Nərimanovun ev-muzeyində qeyd etdilər. Mərasimdə ilk öncə muzeyin böyük elmi işçisi Rəna Qəhrəmanova şagirdlərə tədbir haqqında, həmçinin muzeydə olan eksponatlar barədə ətraflı məlumat verdi. Görkəmli siyasi xadim və dramaturq Nəriman Nərimanovun azərbaycançılıq ideologiyasının əsas sütunlarından biri olduğu, ölkə daxilində siyasi çəkişmələrin ziddiyyətli dövrü yaşandığına baxmayaraq onun elmin, ədəbiyyatın, mədəniyyətin inkişafına xüsusi önəm verdiyi barədə geniş məlumat verən muzey əməkdaşı bu dahi şəxsiyyətin tarixi bir sima olduğunu şagirdlərin diqqətinə çatdırdı.

Sonra söz beşincilərə verildi. Şagirdlər - Nərgiz İsmayılzadə, Nəsimi Süleymanlı, Fidan Quliyeva, Toğrul Nəbiyev, Aylin Quliyeva, Məryəm Yusifova, Pəri Hüseynova, Ayan Hüseynova və başqaları Azərbaycan şairlərinin vətənpərvərlik ruhunda yazdıqları şeirləri söylədilər, vətən , ana, torpaq müqəddəsliyi xarakterizə olunan kompozisiyalar nümayiş etdirdilər, musiqi nömrələri səsləndirdilər. Gitarada Ülvü Əliyevin özü müşayiət edərək ifa etdiyi "Azərbaycan" mahnısı tədbir iştirakçılarında xoş ovqat yaratdı. Çıxış edən məktəbin tarix müəllimi Vəlәddin Hüseynov bu günlərdə qeyd olunan milli bayramımız - Respublika Günü münasibətilə tədbir iştirakçılarını bir daha təbrik edərək ölkəmizin müstəqilliyə qədəm qoyduğu illərdə Azərbaycanın dinamik inkişafı və ötən bu illər ərzində milli təhsilimizin gerçək uğurları barədə həqiqətləri yaddaşlarda təzələdi. Direktor müavini Həcər Məmmədovanın çıxışı da Azərbaycanın tarixi şəxsiyyətləri barədə səsləndirdiyi fikirlərlə diqqəti cəlb etdi.

Sonda muzeyin məsul işçisi Rəna Qəhrəmanova bu önəmli tədbirın təşkilatçısı olan məktəbin coğrafiya müəllimi Aygün Əliyevaya öz dərin təşəkkürünü bildirdi.

Həmin gün beşincilər bir tarixi günü də belə əhvali-ruhiyyə ilə yaşadılar.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Baş redaktor müavini** s.ibrahimov@muallim.edu.az
Sarvan İbrahimov 538-21-55

**Məsul katib** e.abdulov@muallim.edu.az
Elman Əbdülov 510-68-73

**Elm və təhsil şöbəsi** y.aliyev@muallim.edu.az
Yusif Əliyev 538-51-41

**Beynəlxalq əlaqələr şöbəsi** o.mustafayev@muallim.edu.az
Oruc Mustafayev 538-67-41

**İnformasiya şöbəsi** n.rahimov@muallim.edu.az
Niyazi Rəhimov 538-51-41

**Gənclik və yaradıcılıq şöbəsi** s.kerimova@muallim.edu.az
Samirə Kərimova 539-19-74

**Məktublar şöbəsi** sh.cafarov@muallim.edu.az
Şakir Cəfərov 539-64-00

**Mühasibatlıq** 539-67-74

**Kompüter mərkəzi** 539-07-98

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6145, **Sifariş** 1574

**Məsul növbətçi:** Ş.Cəfərov

# Etibarsız sayılır

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2010-cu ildə Məmmədova Günel Ceyhun qızına verilmiş B-184461 nömrəli diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 2 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Yusibova Elnarə Malik qızına verilmiş B-353358 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Neft Energetika Kolleci** tərəfindən 2014-cü ildə Məmmədov İbrahim Çingiz oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** nəzdində Bakı Dövlət Neft Energetika Kolleci tərəfindən 2016-cı ildə Heydərov Fərid Heydər oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 83 nömrəli məktəb-liseyi 2000-ci ildə bitirmiş Həsənzadə Sevinc İsaq qızına verilmiş A-303148 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayonu** Alekseyevka kənd tam orta məktəbini 2013-cü ildə bitirmiş Hüseynov Kamran Mehman oğluna verilmiş A-228358 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Xırdalan şəhər 3 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Cəfərov Natiq Yadigar oğluna verilmiş AK-564803 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 204 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əliyev Elşən Tahir oğluna verilmiş B-130539 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** şəhər 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Abdullayeva Gülnar Məhəmməd qızına verilmiş 262136 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan Peşə Məktəbi** tərəfindən 2015-ci ildə Abdullyev Əyyub Baxış oğluna verilmiş A-064084 nömrəli diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2001-ci ildə Daşdəmirova Rəna Salman qızına verilmiş A-073971 nömrəli diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Abdullayev Firdövsi İntiqam oğluna verilmiş 53 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayonu** Çinarlı qəsəbə tam orta məktəbini 2004-cü ildə bitirmiş Mehdixanov Emil Hüseyn oğluna verilmiş A-075940 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayonu** Çənlibel kənd tam orta məktəbini 2000-ci ildə bitirmiş Mustafayeva Könül Bayram qızına verilmiş A-443521 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayonu** Məmmədqasımlı kənd tam orta məktəbini 1977-ci ildə bitirmiş Dosməmmədov Sadıq Saday oğluna verilmiş A-098803 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Xırdalan şəhər 3 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Nəcəfov İlkin İftixar oğluna verilmiş B-147396 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əlizadə Sənan Bəhaüddin oğluna verilmiş A-093859 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 2 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Beydullayeva Əfsanə Şirzad qızına verilmiş A-488139 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Qobustan qəsəbəsi 195 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Veysəlov Naqif Azər oğluna verilmiş 123102 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2013-cü ildə Hünərvəri Malik Nadir oğluna verilmiş BB-I-022333 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Humanitar Kolleci** tərəfindən 2011-ci ildə Qurbanov Nursultan Aydın oğluna verilmiş AA-003725 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayonu** Çuxuryurd kənd tam orta məktəbini 2014-cü ildə bitirmiş Hüseynli Kənan Şahin oğluna verilmiş A-325681 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayonu** Poylu kənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Aslanova Tükəzban Qurban qızına verilmiş B-408498 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 94 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Vəliyev Elçin Akif oğluna verilmiş B-045847 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 130 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əliyeva Xəyalə Füzuli qızına verilmiş A-512166 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 60 nömrəli tam orta məktəbi 1986-cı ildə bitirmiş Həsənova Sevinc Şamil qızına verilmiş A-219550 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayonu** Axaməd kənd tam orta məktəbini 2000-ci ildə bitirmiş Aşurov Elvin Kamil oğluna verilmiş A-329773 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Quliyev İlham Sərxan oğluna verilmiş A-105539 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Musiqi Akademiyası** tərəfindən 2008-ci ildə Əliyeva Sevinc Baxşeyiş qızına verilmiş B-114363 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 2 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Vəliyev Tural Fuad oğluna verilmiş A-623553 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 170 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əliyeva Yenigül Məhərrəm qızına verilmiş B-043818 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Söhbətova Şəbnəm Rahib qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1986-cı ildə İsgəndərov Mehman Əbülfət oğluna verilmiş HB-009047 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2001-ci ildə Xudakərimli Mircəmil Ağakərim oğluna verilmiş A-087465 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2011-ci ildə Həmidli Dilbər Kamil qızına verilmiş B-241642 nömrəli bakalavr fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Qax rayonu** Qıbçaq kənd tam orta məktəbinin IX sinfini 2004-cü ildə bitirmiş Xuduyeva Fatimə Xudu qızına verilmiş A-103659 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 11 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Həsənova Nərmin Əli qızına verilmiş 583836 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayonu** Fındıxlı kənd tam orta məktəbini 1991-ci ildə bitirmiş Qurbanov Elçin Darçın oğluna verilmiş A-845405 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayonu** Gəlmə kənd tam orta məktəbini 2016-cı ildə bitirmiş Qocalı Aydın Telman oğluna verilmiş A-525268 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 111 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Qocayev Əli Yalçın oğluna verilmiş A-114937 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1977-ci ildə Abiyev Kamil Heydər oğluna verilmiş B-I 002806 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayonu** Təbiət və texniki təmayüllü məktəb-liseyi 2005-ci ildə bitirmiş Mirzəyeva Mələk Əkrəm qızına verilmiş A-188219 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1997-ci ildə Sadıqov İntiqam Elbrus oğluna verilmiş A-002233 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 119 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Qulamova Yasəmən Rahib qızına verilmiş A-717120 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Asiya Universiteti** tərəfindən 2002-ci ildə Xankişiyev Pərviz Firdos oğluna verilmiş A-105493 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2003-cü ildə Ajqibetsev Sergey Aleksandroviçə verilmiş A-121238 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** I Aşıqlı kənd tam orta məktəbini 2000-ci ildə bitirmiş Əhmədov Rza Sətdar oğluna verilmiş 478622 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi əməkdar müəllim, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent

**SEVİNC RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

# “Birincilərin birincisi”

## Azərbaycanın gənc istedadlarını tanıyaq

**Oruc MUSTAFAYEV**

Məlumdur ki, istedadlı uşaqların aşkara çıxarılması, elmi biliklərə həvəsləndirilməsi və rəğbətləndirilməsində fənn olimpiadalarının müstəsna rolu vardır. Ayrı-ayrı fənlər üzrə istedadı və yaradıcı təfəkkürü ilə fərqlənən şagirdləri aşkar etmək üçün keçirilən fənn olimpiadaları IX-XI sinif şagirdləri cəlb olunmaqla Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya, informatika fənləri üzrə təşkil edilir. Builki Respublika fənn olimpiadalarının birinci-rayon (şəhər) mərhələsində 30000 nəfərə yaxın şagird iştirak edib. Naxçıvan Muxtar Respublikasından şagirdlər də daxil olmaqla IX-XI və xüsusi istedada malik aşağı sinif şagirdlərinin iştirak etdiyi olimpiadada 8 fənn üzrə 263 qalib müəyyən edilib. 48 nəfər şagird qızıl, 85 nəfər gümüş, 130 nəfər isə bürünc medala layiq görülüb. Mayın 25-də Respublika fənn olimpiadaları qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Qaliblərə diplom və qiymətli hədiyyələr təqdim olunub. Fənn olimpiadalarının nəticələrinə əsasən, olimpiadanın qızıl medalına layiq görülmüş 8 məktəbli həm də “Birincilərin birincisi” adını qazanıb. Onlarla yaxından tanış olaq.

## “Birincilərin birincisi” mənim üçün böyük qürurdur”




**Humay Kərimova,**
*BDU nəzdində “Gənc istedadlar” liseyinin XI sinif şagirdi*

1999-cu il noyabrın 4-də Bakıda anadan olub. İlk ibtidai təhsilini 32 nömrəli tam orta məktəbdə alıb. İlk addımlarında, uğurlarında ibtidai sinif müəllimi Sədaqət Qurbanovanın böyük rolu olub. 2010-cu ildə imtahan verərək BDU nəzdində “Gənc istedadlar” liseyinə qəbul olunub. V sinifdən təhsilini burada davam etdirir.

- V sinifdən XI sinfə qədər qazandığım bütün uğurlarda liseyin direktoru Qasım Hüseynovun, sinif rəhbərim Yaqut Hüseynovanın, bütün müəllim heyətinin böyük əməyi olub. “Birincilərin birincisi” adına layiq görülməyimdə mənə coğrafiya fənnini sevdirmiş Nəriman müəllimin böyük zəhmətini qeyd etməliyəm. Uğurlarımda əməyi olan bütün müəllimlərimə təşəkkür edirəm.

Fənn olimpiadalarına qatılmağımda və uğurlu iştirakımda kollektivin dəstəyini qeyd etmək istəyirəm. Builki fənn olimpiadasında bütün mərhələləri yüksək nəticələrlə keçdim. Və respublika turuna qatılmaq imkanı qazandım. Respublika turunda gözlədiyim nəticəni əldə etdim. I yerdən əlavə, coğrafiya fənni üzrə “Birincilərin birincisi” adına layiq görüldüm. Bu ada layiq görülməyim mənim üçün, həm də liseyimiz üçün böyük qürurdur. Bu medal sayəsində uğurumda dəstəyi olan valideynlərim, məktəbin pedaqoji kollektivi üçün böyük uğurlu addım atmışdım.

Mükafatlandırma mərasimində iştirak etməyim, o səhnəyə, kürsüyə çıxmağım isə başqa qürur idi. Yəni, səhnəyə çıxarkən hiss etdiklərim, ailəmin, xüsusən anamın, müəllimlərimin əməyi bir anlıq gözlərim önündən keçdi. Və mən hiss etdim ki, bunu mən etməliydim və çox şükürlər olsun ki, buna nail oldum. Mən bir qalib olaraq istedadlı uşaqların aşkara çıxarılması, onlara göstərdiyi dəstəyə görə Təhsil Nazirliyi rəhbərliyinə, şəxsən nazirimiz Mikayıl Cabbarova öz təşəkkürlərimi çatdırmaq istəyirəm. Fənn olimpiadaları istedadlı uşaqların kəşf olunması, onların inkişafının stimullaşdırılması baxımından gözəl bir tədbir idi. Və mən də bu tədbirə qatılmaqla böyük uğur əldə etdim.

## “Hədəfim fənn olimpiadasında qızıl medal almaq idi”




**Anar Rzayev,**
*“İstək” Beynəlxalq Məktəbinin IX sinif şagirdi*

2001-ci ildə Bakı şəhərində anadan olub. I-VI sinifləri 132-134 nömrəli təhsil kompleksində oxuyub. VIII sinifdə riyaziyyat fənni üzrə “İstək” Olimpiada Mərkəzinə qəbul olunub. Hazırda təhsilini “İstək” Beynəlxalq Məktəbində davam etdirir.

- Respublika fənn olimpiadası kimi yüksək səviyyədə təşkil olunan bir olimpiadada iştirak etməkdən çox məmnunam. Olimpiada çox maraqlı və həyəcanlı keçsə də, ən çox gözlədiyim və həyəcanlandığım məqam olimpiadanın bağlanış və mükafatlandırma mərasimi oldu. Builki mükafatlandırma mərasimi mənim üçün çox yaddaqalan bir gün oldu. Mənim VIII sinifdən ilkin hədəfim respublika fənn olimpiadasında qızıl medal almaq idi. Bu iki il ərzində çalışdığım zəhmət, nəhayət, öz bəhrəsini verdi. 2017-ci ildə respublika fənn olimpiadasının riyaziyyat fənni üzrə “Birincilərin birincisi” adına layiq görüldüm. Bu olimpiadanın gedişi mənim üçün çox çətin bir yol idi, lakin mən bunun öhdəsindən gələ bildim və qızıl medala layiq görüldüm. Qızıl medalı aldıqda öz hədəfimə çata bildiyimə görə çox sevinmişdim. Bu medalı almaqda isə mənə dəstək olan valideynlərimə və lisey müəllimlərimə öz minnətdarlığımı bildirmək istəyirəm.

## “Bu, mənim üçün böyük sürpriz oldu”




**Səbuhi Mikayılov,**
*Quba “İstək” liseyinin XI sinif şagirdi*

1999-cu il oktyabrın 25-də Kürdəmir rayonu Şiximli kəndində anadan olub. 2006-cı ildə Bakı şəhərindəki 37 nömrəli tam orta məktəbin I sinfinə daxil olub. 2012-ci ildən təhsilini Quba “İstək” liseyində davam etdirir. Orta məktəbdə fizika və riyaziyyata daha çox maraq göstərib. VII sinfin 2-ci yarısından fizika olimpiadasına hazırlaşmağa başlayıb. IX sinifdə Jautıkov olimpiada seçimlərinə qatılaraq Azərbaycan komandasına üzv olub. Artıq Qazaxıstanda keçirilən ilk bilik yarışında III yeri qazanaraq bürünc medala layiq görülüb. 2015-ci ildə Qazaxıstanda keçirilən XI Beynəlxalq Jautıkov olimpiadasında bürünc, 2016-cı ildə XII Beynəlxaq Jautıkov olimpiadasında gümüş medal qazanıb.

- Ölkəmizdə bu il keçirilən fənn olimpiadaları əvvəlki illərdəkindən fərqli oldu. Sualların daha rahat olmasına baxmayaraq rəqiblərimiz daha çox idi. Bu isə şagirdlər arasında mübarizəni daha da gücləndirirdi. Fənn olimpiadasında qızıl medal qazanmağı qarşıma məqsəd qoymuşdum. Lakin daha yüksək nəticə topladım. Bundan əvvəlki Respublika fənn olimpiadalarında 2 dəfə 2-ci yerə layiq görülmüşdüm. Builki hədəfim isə qızıl medal idi. Ancaq mən fizika fənni üzrə “Birincilərin birincisi” oldum. Bu, mənim üçün böyük sürpriz oldu. Qaliblərin mükafatlandırılma mərasimi çox yaxşı təşkil olunmuşdu.

## “Yüksək ada daha çox çalışdığıma görə layiq görüldüm”




**Rüstəm Ağayev,**
*Xalqlar Dostluğu “İstək” liseyinin XI sinif şagirdi*

2000-ci il martın 31-də Ukraynanın Luqansk şəhərində anadan olub. Hazırda Xalqlar Dostluğu “İstək” liseyinin XI sinfində oxuyur. 2014-cü ildə Respublika fənn olimpiadalarında bürünc medal qazanıb. 2015-ci ildə XI Beynəlxalq Jautıkov və Dünya İnformatika olimpiadalarında iştirak edib. 2015-ci ildə Respublika fənn olimpiadalarında qızıl medal alıb. 2016-cı il XII Beynəlxalq Jautıkov olimpiadasında isə bürünc medala layiq görülüb.

- Builki Respublika fənn olimpiadaları çox normal keçdi. Mən informatika fənni üzrə fənn olimpiadasında iştirak etdim. Olimpiadanın nəticələri mənim üçün uğurlu oldu. İnformatika fənni üzrə olimpiadanın qızıl medalı ilə yanaşı, “Birincilərin birincisi” adına layiq görüldüm. Bu yüksək ada fənn olimpiadasında daha çox çalışdığıma görə layiq görüldüyümü deyə bilərəm. Orta məktəbi bitirdikdən sonra ali təhsilimi xaricdə proqram təminatçısı ixtisası üzrə almaq istəyirəm.

## “Fənn olimpiadasında qalib gəlməyi arzu edirdim”




**Fəxrəndə Mirzəyeva,**
*Bakıdakı 274 nömrəli tam orta məktəbin IX sinif şagirdi*

2001-ci il avqustun 26-da Qobustan rayonunda anadan olub. 2008-ci ildə Qaradağ rayonu Müşfiqabad qəsəbəsi E.Şirəliyev adına 274 nömrəli tam orta məktəbin I sinfinə qəbul olunub. Hazırda həmin məktəbin IX sinfində oxuyur.

- Məktəblilər arasında keçirilən Respublika fənn olimpiadaları istedadlı şagirdlərin üzə çıxması, formalaşmasında çox böyük əhəmiyyətə malikdir. Fənn olimpiadalarının keçirilməsi ölkəmizdə savadlı gənclərin yetişməsində xüsusi önəm daşıyır. Hər il minlərlə gənc fənn olimpiadalarında iştirak edir və qalib gəlmək uğrunda mübarizə aparır. Əvvəlki illərin olimpiada qaliblərini gördükdə onlara qarşı xüsusu rəğbət və qibtə hissinə qapılırdım. Bir gün mən də fənn olimpiadasında iştirak etməyi və qalib gəlməyi arzu edirdim. İlk dəfə qatıldığım fənn olimpiadası və qazandığım nailiyyət qarşıma daha böyük hədəflər qoymağıma səbəb oldu, eyni zamanda üzərimə böyük məsuliyyət qoydu. Bundan sonrakı 2 il ərzində də olimpiadada iştirak edib bu uğurun təsadüfi olmadığını göstərmək və ali məktəblərə qəbul imtahanında yüksək nəticə qazanmaq əsas məqsədimdir. Tarix fənni üzrə “Birincilərin birincisi” adına layiq görülməyimdə, bu uğurun qazanılmasında məktəbdə yaradılan tədris mühiti, şagirdlərə göstərilən qayğı və fənn müəllimimin böyük rolu vardır.

## “Çalışacağam ki, Azərbaycanın adını daim yüksəklərə qaldırım”




**Ramil Babazadə,**
*“İstək” liseyinin X sinif şagirdi*

2001-ci il mayın 6-da Şəki şəhərində anadan olub. 2007-ci ildə Bakıdakı 74 nömrəli tam orta məktəbin I sinfinə qəbul olunub, VI sinifdə imtahan verərək “İstək” liseyində oxumaq şansı qazanıb. IX sinifdə oxuyarkən 50-ci Beynəlxalq Mendeleyev Olimpiadasında iştirakçı diplomu, Respublika fənn olimpiadalarında gümüş medal, Gürcüstanda keçirilən 68 ölkədən 300-ə yaxın sagirdin iştirak etdiyi 48-ci Beynəlxalq Kimya Olimpiadasında bürünc medal qazanıb. X sinifdə İndoneziyanın Denpasar şəhərində keçirilən və 48 ölkənin iştirak etdiyi Yeniyetmələrin 13-cü Beynəlxalq Təbiət Elmləri Olimpiadasında bürünc, 2017-ci ilin mart ayında keçirilən 51-ci Beynəlxalq Mendeleyev Olimpiadasında bürünc medala sahib olub.

- Respublika fənn olimpiadaları həmişə olduğu kimi, bu il də obyektiv keçdi. Mən olimpiadada kimya fənni üzrə istirak edirdim. 3 mərhələdən ibarət olan olimpiadanın tapşırıqları kifayət qədər çətin idi. III mərhələ isə əvvəlki mərhələdən fərqlənirdi. Burada tapşırıqlar açıq tipli idi.

Mən kimya fənni üzrə olimpiadanın ən yüksək nominasiyası olan “Birincilərin birincisi” seçildim və qızıl medalla təltif olundum. Bu, mənim olimpiada tarixçəmin ən yüksək nailiyyəti oldu və məni daha da həvəsləndirdi.

Mayın 25-də olimpiada qaliblərinin mükafatlandırma mərasimi keçirildi. Tədbirdə təhsil naziri, millət vəkilləri, tanınmış ziyalılar və b. iştirak edirdilər. Qaliblərə diplom və müxtəlif qiymətli hədiyyələr təqdim olundu.

Mən də, öz növbəmdə, çalışacağam ki, Azərbaycanın adını daim yüksəklərə qaldırım.

## “Nobel mükafatçısının qiyməti bizdə əlavə stimul yaratdı”




**Nuray Allahverdiyeva,**
*Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin XI sinif şagirdi*

1999-cu il noyabrın 20-də Bakıda anadan olub. 2006-cı ildə E.Məmmədov adına 21 nömrəli tam orta məktəbin I, 2010-cu ildə isə Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin V sinfinə qəbul olunub. Hazırda həmin məktəbin XI sinfində təhsil alır.

- Respublika fənn olimpiadaları son illərdə çox şəffaf keçirilir. Olimpiadaların Azərbaycanın bütün rayon və kəndlərini əhatə etməsi, regionlardan olan şagirdlərin də medallara layiq görülməsi ucqar kəndlərdə oxuyan şagirdlərin təhsilə marağını artırır, onlarda həvəs oyadır. Münsiflər heyətinin yazı işlərini yoxlayarkən göstərdiyi obyektivlik, şagirdlərə fərd kimi yanaşmaları, öz yazılarımızla tanış olmaq imkanının yaradılması fənn olimpiadalarının təqdirəlayiq xüsusiyyətlərindəndir. Son 3 il ərzində oxuduğum lisey fənn olimpiadalarında fəallıq göstərmiş, yüksək yerlər qazanmışdır. Təhsil Nazirliyinə bizə bu imkanı yaratdığı üçün minnətdarlığımı bildirmək istəyirəm.

Keçən illərdə olduğu kimi, bu il də respublika fənn olimpiadaları qaliblərinin mükafatlandırılması mərasimi çox yüksək səviyyədə təşkil olunmuşdu. Ötən illərin fənn olimpiadalarının qaliblərinin bizə xaricdən təbrik mesajı göndərmələri, Nobel mükafatı laureatı Əziz Səncərin olimpiadaya verdiyi yüksək qiymət bizdə əlavə stimul yaratdı. Bir sıra yüksək vəzifəli dövlət rəsmilərinin, millət vəkillərinin, ali məktəb rektorlarının, yazıçıların mərasimdə iştirakı bu tədbirə göstərilən yüksək diqqətin bariz nümunəsidir. Sonda təhsil naziri Mikayıl Cabbarov “Birincilərin birincisi” nominasiyası üzrə qalibləri mükafatlandırdı. Mən Azərbaycan dili üzrə “Birincilərin birincisi” oldum. Fənn olimpiadaları ölkəmiz üçün gələcəkdə faydalı olacaq istedadlı şagirdlərin üzə çıxarılmasında önəmli rol oynayır.

## “Fənn olimpiadalarında obyektivliyin şahidi oldum”




**Alper Qurbanov,**
*Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin XI sinif şagirdi*

2000-ci il yanvarın 27-də Sumqayıt şəhərində anadan olub. 2006-cı ildə Sumqayıt şəhər 25 nömrəli tam orta məktəbin 1-ci sinfinə qəbul olunub. 2008-ci ildə Bakıdakı 100 nömrəli tam orta məktəbin III, 2015-ci ildə isə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinə daxil olub. Hazırda həmin məktəbin XI sinfində oxuyur. 2016-cı ildə “Gələcək nəsillərlə üz-üzə” ümumrespublika inşa müsabiqəsində “Demokratiyanın yayılması” mövzusu üzrə I, həmin il keçirilən Respublika fənn olimpiadalarında biologiya fənnindən III yerə layiq görülüb. 2017-ci il dekabr ayında keçirilən SAT imtahanından 1330 bal, həmin ildə keçirilən Uludağ Universiteti YÖS imtahanından 100 baldan 97,5 bal toplayıb. 2017-ci ildə keçirilən Respublika fənn olimpiadalarında biologiya fənnindən ən yüksək nəticə göstərərək “Birincilərin birincisi” nominasiyasını qazanıb.

- Son illərdə fənn olimpiadalarının keçirilməsində yeni dəyişikliklər edildi. Bunun sayəsində olimpiada nəticələrinin qiymətləndirilməsi şəffaf şəkildə həyata keçirilir və getdikcə olimpiadaya qatılanların sayı artır. Olimpiada işləri kodlaşdırılır və keçirildiyi gün nəticələr elan olunur. Artıq iki ildir ki, fənn olimpiadalarına qatılıram və bu il də bu obyektivliyin şahidi oldum.

Fənn olimpiadaları məktəb dövrünün əsas elementlərindəndir və şagirdlərin ən önəmli nailiyyət meyarlarından biridir. Buna görə də fənn olimpiadalarına qatılmaq hər bir şagird üçün mühüm bir məsələdir. Mən də 2016-cı ildə ilk dəfə fənn olimpiadalarının iştirakçısı oldum və biologiya fənni üzrə 3-cü yerə layiq görüldüm. Bu il isə ən yüksək nəticə göstərərək biologiya fənni üzrə “Birincilərin birincisi “ nominasiyasını qazandım. Fənn olimpiadalarında şagirdlərlə bərabər müəllimlərin və məktəb rəhbərliyinin rolu böyükdür. Bizim məktəbdə də olimpiadalara ciddi yanaşılır və olimpiada qrupları təşkil olunur. Olimpiada hazırlığının təşkilinə görə məktəb rəhbərliyinə, xüsusilə məktəbin direktoru, professor Nasim Abışova və olimpiadada əldə etdiyim nailiyyətə görə biologiya müəllimim, biologiya üzrə fəlsəfə doktoru Fuad Ağayevə təşəkkürümü bildirirəm.